SULTAN SAVALAN

TOPLUSU

Birinci dəftər

Muğan

Ustad Şəhriyarın ölümü münasibətilə

Yetmiş il qondu xəyal qartalı dağlar başına
yetmiş il yazdı ürəklər sözünü, dağ - daşına
hünərin Şəhriyarı, yetdi axır son yaşına
ədəbin çarxını seyr eylədi tovdan düşdü

səksən üç il vətənin bəslədiyi mərd oğulu
otuz üç milyona baliğ bir elin, fərd oğulu
odlu yurdun balası oldu axır, dərd oğulu
o qədər yazdı elin dərdini dovdan düşdü

o çəkirdi elinin qayğısını şam o səhər
əriyirdi təni, könlündə qalandıqca kədər
eləmişdi qəm, onu; el yerinə əldə sipər
bir girovgan kimi, çün sındı! Girovdan düşdü

ayrılıqdan söz açan el ara, varəstə ozan
dilinə, həm elinə - yurduna, dilbəstə ozan
Türkmən çay bölüşündən ürəyi xəstə ozan
mum kimi şöylə çəkib yandı... alovdan düşdü

qoy düşə dillərər şeri - sözü Heydərbaba tək
səksən il çəkmələr altında əzilmişdi demək

qəm yer etməklə kiçik si`nədə şişmişdi ürək
çatladı bağrı, ürək yuxladı, hovdan düşdü

mum kimi yandı, verib can vəli pərvanə kimi
şe`rinin tellərin indi darayın şanə kimi
tapşırın Şəhriyarı torpağa, əfsanə kimi
uçdu can, batdı nəfəs, ayına hovdan düşdü

o qəni təbi`lə çün pir-i Muğan miskin idi
elinin dərdinə, kəskin qələmi təskin idi
el "kəlim"i`di, sözü haq sözü tək kəskin idi
dərdə bax! tikdi dodağın, sözü sovdan düşdü.

ÖN SÖZ

Ulu bir dağın döşündə yaşamağım, qohum- qonşunun ona təqəddüs gözü ilə baxmaqları və hər söz başında, öyüdlərində - düalarında və hətta qarğışlarında, ondan ad aparmaqları hər zaman məni o qocaman dağın mə`nəvi əzəməti haqqında düşünməyə vadar edirdi..... Hamıya bəllidir ki: xalq arasında və habelə zəngin ədəbiyyatımızda, mə`nəvi və həma`səvi məqama malik olan insanların adlarını aparmadan qabaq onlara layiq ləqəbləri və ya xalq özü verən ayamanı deyib sonra öz adlarını zikr edərik. örnək olaraq:

Şah Xətayi- qoçaq və qaçaq Nəbi- iyid Babək- xan Çoban ... və sairə. Sultan Savalan və xan Arazda, öz mə`nəvi əzəmətlərinə görə el içində bir böyük insan kimi, canlı- şanlı və müqəddəs sanıldıqda; özləriçin adlarından qabaq, sultan və xan ləqəbi almışlar..... nəsildən nəsilə, dildən dilə, ata-babalarımızdan; sultan Savalan haqqında bizə çatan sözlər, insanı onun keçmiş əzəməti haqqında düşündürür, onun heybətli görkəmi göz önündə daha da artıq canlanır və hamıda, onu yaxından görməyə və ziyarət etməyə maraq yaradır, ancaq; təəssüflər olsun ki bəzən çox müştaqlarını bir mə`şuq kimi ziyarətindən məhrum edir,..... mən illər boyu, gecə- gündüz bu heybətli və əzəmətli dağ haqqında düşünmüşəm, onun zirvəsini görmək və yaxından ziyarət etmək, mənim ilkin röya`larım və arzularım olmuşdu.Ancaq; hər dönə ki bu qərara gəlmişdim, saatlar talaşdan sonra dözümüm azalıb və ayaqlarım getməkdən qalıb kamsız, yorğun- arğın qayıtmışdım.

Otuz yeddi yaşayış yazımda (1986/01/07.m) çillə ayında, gecə yarısı; mənə üz verən qəlbi həmlə, aylar boyu məni sarsıtdı, gecələr və gündüzlər ürək sancısı çəkmək və dava- dərmanla ömür sürmək məni lap ayaqdan salıb yaşayışı gözümdə acı bir hala saldı. Belə bir vəziyətdə, bu zə`fə üstün gəlməkçin Savalana getməyi qərara aldım və (1986/07/03.m) də həmişəlik

xəyal və röyalarım doğruldu və arzularım yerin aldı, ki bu müvəffəqiyət məndə, yeni qudrət və cürət yaratdı.Ikinci yol, (1986/08/21.m) də yenə sultanın zirvəsinə yol saldım, ancaq: bu dönə daha ürək ağrısından xəbər yoxudu, və həyat mənim önümdə bütün gözəllikləri ilə üzümə gülürdü.... müalic doqtora müraciə etdim, doqtor qəlbimin işindən navar götürüb və başqa müayinələrdən sonra təəccüblə üzümə baxıb belə söylədi: sənin qəlbin büsbütün sağalıb və heç bir narahatlıq görünmür!... əyər belə getsə iki- üç aya qədər dava dərmana ehtiyac tapmayacaqsan...mən onun bu muştuluğunu eşidəndən sonra, iki kərə Savalanın zirvəsinə süu`d etməyimi ona bildirdim, doqtor heyrətlə mənim üzümə baxıb gülümsədi və sonra məni qucaqlayıb bu müvəffəqiyəti ürəkdən təbrik etdi,.... onun bu əməli Savalan həndəvərində yaşayan saf- sadə insanların, isti baxışlarını və əllərimi s`daqətlə sıxıb, mənə dönə- dönə "ziyarətin qəbul olsun"deməklərini, gözümün önündə canlandırdı. .....Belə bir cəbri müvəffəqiyətlər nəticəsi olaraq, sultan Savalan haqqında, tədqiqlər aparmağa başladım. Birər-birər, gördüklərimi və eşitdiklərimi kağız üstünə gətidim, demək; Savalan haqqında şe`r yazıb yaratmaq məni özünə doğru çağırırdı, ancaq: hər vaxt ki bu qərara gəlirdim, özümdə bir ağır zə`f duyub və ondan göz örtürdüm bunlarla belə can

sağlığını və sa`lim yaşayışımı sultan Savalana mərhun bilib və özümü o əzəmətli dağın varlığına borclu bilirdim... hər kərə Savalana gedib qayıdandan sonra- özümlə bir çox şirin xatiralar və yeni mə`lumat toplayıb gətirdim..... bu gəlib- getmələr, yeni- yeni mə`lumat toplamalar, Savalana nisbət məndə pak bir duyğu, saf- saydam əlaqə yaradırdı..... bu hisslər və duyğular, durmadan məni dümsükləyib səslənməyə çağırırdı. Belə ki, çox çəkiş- bərkişdən sonra; nəhayət, bir gecə (1986/08/21.m) də bu poemanın yaranmasında; böyük bir eşq və məhəbbətlə meydana ayaq qoydum və sultan Savalana olan dərin məhəbbətimi və zövqümü bu poemanın sonuna dək qorudum, ancaq: qələmimin zə`fi və təbi`min axarsızlığı, qoymadı o cür ki sultan Savalanı görüb, **daş**larıyla, **dağ**larıyla, qarış- qarış **toprağ**ıyla, axar **su**larıyla və habelə təravətli **gül çiçək**lərivlə və **quş**larıyla tanış olmuşdum və **yay**ı **- yaz**ı**- güz**ü**- qış**ı, cür bə cür görkəmli mənzərələrinə tanıq olmuşdum, sayfa üstünə gətirim! Demək: bu kiçik əsər bir mahal sünbüldən bir övuc başşaqdır...olsun ki, vətən qələmdaşlarımda sultanı görməyə və onun şanında daha gözəl və qudrətli əsərlər yaratmağa, məndən artıq maraq və şövq yaransın.

Ədəbiyyatın kiçik xadimi, **Muğan**

1988/05/02

SULTAN SAVALAN

Birinci bənd

Savalan, bax havalan, dərdin alan, çoxdu mənim tək
sevirəm dağ- dərəni, bət- bərəni, canla tənim tək
qara- ağlı; Qaradağlı, Qarabağlı, vətənim tək
ay bütün varlığı göyçək
dəli vurğunlara baş çək!

***

ay təbiət gözəli, çoxlu gözəllik gözü, sənsən
həm, şirin yazlı- şirin nazlı, baxışlar sözü, sənsən
nə bilim! bəlkə bu dünyada beheştin özü, sənsən?
Kovsərin çeşməsi dəryaçana bağlı
ətəyin səbzəli- bağlı
güllərin qollu butaqlı

***

göz baxarkən baxışımla, öpürəm al yanağından
Xızr tək axtarıram a`b-i həyatı bulağından
varlığın şəftini bəlkə əməm o gül dodağından
almadan ha`cətimi, mən o müqəddəs ocağından

çəkmərəm əl, ayağından
qopmaram heç qucağından

***

ulu sultan Savalan, dağlar ara tut uca, ba`şın
neçə milyon ili aydındı qoyubdur geri ya`şın
açıq alnın qırışıbsa, ağarıb baş ilə qa`şın
yenə saysızdı tala`şın
....çox düşüb başlara da`şın

***

hörmətin var el ara, bizlərə Sultab baba, sənsən
öz qoçaqlarına yol göstərən ağşın xoca, sənsən
Dədə Qurqudlu o səksən bir(1) elata Ata, sənsən
dillərin əzbəri ellər ara, sənsən
bollu dərdə çara, sənsən

Savalan Elatları :

Yığışıb başına **Bəy dilli, Hüseyn xanlı, Muğanlı**
Xəlfəli, Gilo, Günevli, Qaracalı, Hacıxanlı
Ucarudlu, Əli babalı, İnallı la **İnanlı**
Dil ağızdar, Qululu, Təkləbə, Şıxlı, Dəmikanlı
Yeddioymaq, Qaramanbəyli, Həsənbəyli, Küzanlı

Bəndalıbəyli, Dəmirçi, Korabazlı la **Aranlı**
Ilxıçı, Sadat, Adatlı la **Gəruslu, İsaxanlı**
Gəbəli, Minliseyidlər, Ataxanlı
Şahqulubəyli, Hüseynhacılı, Novruzalı, Zərgar
həm **Pirayvatlı, Talışmikayıl, Ayvatlı, Cilovdar**
Ərdəbilində **Talışmikayılı, Təkləli, Qutlar**
Bəyli, Dursunxocalı, Məstalıbəyli, Səravanlar
ay nə şövkətli elin var!
Hacıxanlı, Udulu, Hacıxocalı, Qocabəyli,
həmdə **Cə,fərquluxanli** la **Geyikli, İbabəyli**
Alarov, Xəlfəlimərdan, Yekikidli, Korabəyli
Sarıxanbəyli, Homonlu ilə **Yurtçurizabəyli**
Hüsinəkli lə **Cəfərli, Balabəyli**
Günpapaq, Yurdçu, Nasanlı, Larılı, Sarınəsirli
Həm **Xamısli** lə **Kalaşlı** la **Xiyovlu** la **Əcirli**
Yekəli birdəki **Bəybağlı, Kələsərli, Poladlı**
Cəbədərli lə **Ərəbli** lə **Muradlı**
ay geniş düşlərinin hər qarışı; sevməli, adlı
sufrası; dadlı, abadlı.

Yaylaqlar :

hər bucaqsız ətəyin bir ucu on tiyrəyə yaylaq
bollu yaylaqlarını hardan olar şe`rilə saymaq?!
neçə yüzdən birini istəyirəm söyləyim ancaq
Quzuçu, Maldili, Xərmeydanı, üç görməli oymaq
doludur qurd ilə **Qurd bazarı**, **Dullar** kimi **Yarpaq**
Çay gözü, Çay arası, Çay döşü, Dik yurdla **Alçaq**
Asiyanın **qəcəli, Buzlu qaya, Güllü Günik, Ağ**
Mənəgəhlo, Cüri, Ağ məçcid, Uzun yurd la **Yaypaq**
Molxo, Sırsırdava, Təndirli, Şəqi, Güzlücə, Boz dağ
Novruzun **yurdu, Divan daşı, Güney** lə **Quzey otraq**
həm **Çopurdaş, Qara torpaq.**

Bulaq adınlı Yaylaqlar:

Şamla **Yoqquş** bulağın **Sarı, Qara, Qanlı** bulaqlar
Cinni, Səsli bulağın **Asma, Bığa** canlı bulaqlar
Dağ bulaq**, Buzlu** bulaq**, Daş** bulaq**,** ad- sanlı bulaqlar
Acı, Eyranlı bulaqlar
şanlı mehmanlı, bulaqlar

Gədiklər :
Ay **Hazar Muğ** gədiyin el yolu, bir yelli gədikdir

payız ilə yazı, **Həftə gədiyi**n, selli gədikdir
sayının çənli- küləkli- dəli sov- felli, gədikdir
amma, bir elli gədikdir

***

bir səhərsən ki, sənin yoxdu vücudunda qaranlıq
heç zaman yer edə bilməz dəli bağrında xəzanlıq
gözə çarpır, odu hər əsrdə siymanda cavanlıq
yaxşılıq zatına hopmuş; sən-için yaddi yamanlıq
bir qarış torpağına; fəxr eləyər, min avadanlıq
çevirərsən ana yurdun cenana, olmasa xanlıq
olmasa yengə, boranlıq
az zaman qoysa dumanlıq

Köylər :

Nəfəsinlə; hər eniş, hər yoxuşun oldu gülüstan
çağlayan çeşmələrinlə elədin sinəni bostan

baxıram çevrənə; oxşur görürəm cənnətə, hər yan
Ənzab, Əndab, Əmir, Ərbab, Ənili, Əndərab, Ənzan
Ərdəlan, Ərdəha, Ərcistan, Əcir, Ərcə, həm Ərcan
Əsnəməz, Əsgi şəhər, Əngir, Ələncə ylə Əsigran
Evri, Erdi, İdəli, Eyvə, İmitcə ylə Əminxan
Alvar, Alvars, Aladizgə, Alı, Allı, Alan, Alşan
Aldaşın, Arxalı, Abbəyli, Açа, Ayqala, Alman
Ağmıyan, Ağ güney, Ağmam, Ağayar, Ağ qala, Azğan
Ballı qışlaq, Binəmar, Ballı dərə, Ballıca, Bantan
Bəhrəman, Bəhl o Babacan
Budalali, Barı, Babyan

Təzə kəhriz, lə Tütünsüz, Təpə, Təkdamla Tələkdan
Piraqum, Pirni, Pir alqırla Pir almanla Pir azman
Paxlavar, həm Pətəxor kəndi, Piləvər, Piləsəhran
Pencəmir, Papalı, Pirkan
Ciyavan, Cablı, Cəlayır, Cıda, Cınqırlı, Cumayran
Comadı, Cıd, Cəbədər,lə Calı, Cızqışlağı, Cilan
Çilgəzi, Çənbəli, Çəndab, Çiməli, Çat qəyə, Çıpqan
Xənəqə, Xizrı, Xənəşir, Xiyərək, Xəlfəli, həm Xan
Xoceyım, Xüşkəri, Xadimli, Xorayım, Xəşəheyran
Dijvijin, Daşlıca, Doğan

Dəravar, Daşdərə, Deyman

Dümələr, Döymədağın, Dəmdəmə, Dehməstili, Dürdan

Divləsər, Divlə, Dabanlı, Dəlilər kəndi, Danıran

Rəz, Rəzey, Riçə, Ravascan, Zirasof, Zeyvə və Zafran

Səreyin, Saltavar ilə Sümərin, Sərdava, Səmyan

Soma, Suha, Sula, Soğanlı, Seyin, Sərdi, Samiran

Şəmsavar, şıxlı, Şaməsbi, Şərəvər, Şalı, Şələpran

Şürfə, Şındırşamı, Şirvan

Şahnişin, Şah təpə, Şiran

Fəxravar, Fərzi, Fələndər, Fəraguş, Fəthəli, Sultan

Qaraqaşlı, Qaracıq, Qəmçiqaya, Quzluca, Qanqan

Korabazlı, Korayım, Korqala, Kollar, Keri, Kolan

Kürdəde, Kollu, Küzə torpaq ilə Kürd ilə Kərgan

Kəhrəlan la Kısala, Kəhriz ilə Kərgəşə, Kəlyan

Goravan, Germi, Gazır, Gərzə, Güvə, Golan o Gərcan

Gül muğan-ı Gələsən sən Görəsən, Göllü, Gülüstan

Ları, Lay, ləncava, Ləkran

Lələli lə Lamı, Latran

həm Niyarla Niyara, Nirlə Nəmin, Nocədə, Nuran

Növədi lə Noqudu, Nərli, Narab, Növdə, Nünəkəran

Mirni, Meyməndilə Mərni, Madiə, Minava, Mizan

Ot paşa, Orta, Unar, Ucğar, Ürüşnə, Ocur, Olğan

Vədənov, Virsə, Vicəndə, Varağol, Vərgəsaran san
Himləvar, Hüşnə, Harasban
Himişan, Helava, Hirvan
Yekəli, Yoncalı, Yüsran

***

dünyada tut başını çox uca, el içrə doyunca
bu kiçik çilləni Darğan gününün(2) sübhü soyunca
sənə bir toy tutaq ancaq, gülüşək yazlı toyunca
çapdıraq qaşqa, yəhərli, atı meydanda doyunca
başına, tac qoyunca

***

Qaradağ sağdışın olsun, Bağruda solduşun olsun (3)
haylayaq el- elatı, ellik ilə çevrənə dolsun
ellərin bir- bir, ayağında bitən kolları yolsun
qoymayaq lalələri dağlı döşündə daha solsun
al yanaq güllərin ilə
sarı sünbüllərin ilə

***

sənə baxdıqca könüldən silinir dağlı kədərlər
ağlı heyran eləyir səndəki minlərcə hünərlər
Gürgür adlı bu **şəlalən** o **niyagra**nı nəzərlər
hər ağızdan eşidir insan o əsna`də xəbərlər

bağlanır ellik ilə varlığın üstündə kəmərlər
görünür onda zəfərlər
o zəfərlərdə səhərlər

***

xan-i yəğma tək açıb xeyrata dəstərxan ətəklər
bir gözəl şəhrəkə oxşur o ətəklərdə pətəklər
nur saçaqlarla günəş yerdə sərib zərli leçəklər
Göy çəmənlər başına çətrini açmış göbələklər
min bəzəklə bəzənib, al- sarı- ağ- mavı, çiçəklər
zövq alır güllərə qonduqca, al- əlvan kəpənəklər
başda sultan Savalan, dövrədə bir iddə köməklər
çağrılır şənliyə, baxmaqla bütün qəmli ürəklər
yaşasın güclü biləklər
bar verir keçmiş əməklər
yaşayır şanlı diləklər

Bitgilər :

Yam yaşıl rəngli dəstərxan açıb gör nə **Çəmən**lər
Sarılıb dağlara, daşlarda atıb boy **Şüvərən**lər
Köməci tək yaşayır əmnidə yerdən süd **Əmən**lər
Göybaş ilə **İlişim**lər sarınıb, **Vel**di **Gəvən**lər

dərilir **Yarpız**ıla **Yemlik** ilə **Boymadərən**lər
günü- gündən qızarır **Quş üzümü** tək göyərənlər
güllənən **Yonca**ya baxdıqca gülümsər **Qüləyən**lər
ğarqdır şənliyə **Şənbəllə**, **Bənövşə, Budəgən**lər
quylayan baş, qara günlərdə, qara, qəmli dünənlər
indi **kəhlik otu** dənlər

Barlı hasılları və ağacları :

Şəli- Şaftalı- Əriklə **Alı- Əmrud**ilə **Heyva**
Gilənar- Tutla **Gilas- Fındıq**ıla **Girdəkan- Alma**
o ağaclarla verib baş başa yer- göy ara **Alça**
kölgədən yerdə sərib hər biri xalça, neçə parça
aslanıb öz şitilindən **Lobiya- Maş- Ləpə- Paxla**
bəslənir torpağın altında **Çuğundur**la **Yeralma**
günəş altında **Üzüm** sərxoş uzanmış Qanalarda
mələkə tək **Məkə**də tökmüş üzə telləri hətta
sarı sünbüllərin oynatmağıla, **Buğda** tək **Arpa**
elligən cəşn tutub dildə deyirlər belə guya:
yaşa, a...y zirvəsi ziba
nə qədər vardı bu dünya
şövkətin, gün bə gün arta

Quşlar :

Alapaxta,**Aalaşa**, **Çərtikə**, **Durna**, **Pığı**, **Laçın**

Bəpbu, Bağrıqara, Bülbül, Toraxay, Ley, Bildirçin

Toyğar o **Toğan** o **Tərlan** ilə **Toğrol**la **Təmuçin**

Sağsağanla **Sarıköynək, Suquşu, Serçə, Sığırçın**

Sondılac, Sonqor o **Səncər**lə **Qutan, Çağrı, Balığçın**

Qazalax, Qaz, Qəcələ, Qırqı, Qızılquşla **Göyərçin**

Qərqavul,Qumru,Qaranquş,Qərəcə,Qartalo**Burçin**

ki görürlər döşənib həndəvərə gül ,belə çin- çin

döşəyən sufranı sultandı; deyirlər bizimelçin

sankı rizvanı ediblər Erəm-in bağına gülçin

göz atır Quşlara nəsrin

eləyir sultanı təhsin

Çaylar :

Göz yaşın, min yaraşıq rəsm eləyibdir ol üzündə

Ağlağan gözlərinin yaşı, salıbdir yol üzündə

birləşib gahda o yollar, gah olub qol- qol üzündə

sağ üzündə

sol üzündə

Cinliçay, Zilkəliyən, Ağ çayı**, Qaynarca, İlanlı**

Erdi, Dursunxoca, Layyündoğa, Qutlarla **Samanlı**

Nir, Nəminlə **Çəki, Saqqızçı, Corablı, Səmiyan**lı
ətəyində görükümlər yaradıb ay adı sanlı
ad- sanınca yaşa, şanlı
yam yaşıl damənində çeşmələrin olmada carı
əl ələ verməyilə sındıracaq daşlı hasarı
bir **böyükçay**, olacaq, **tacyar**ın olsa çıxarı
Girdə çayla güdə **Xorxor** ayağa salsa **Niyar**ı
qoşulub **Novduz**, **Əhər çayı**na görsə **Dəravar**ı
Pəşo, Buqçul**,** Dərəört**lə** Nosuyun, Subaşı, Ları
Növədilə **Quru, Ağçalı, Avarsı çayı, Sarı**
Razlıqın **Dövrüş** ilə axsa **Acıçay**ına sarı
o **Xiyov çayı**, **Göyərçin**lə **Balıqlı çayı**, **barı**
yadına salsa **Unarı**
sındırar daşlı hisarı

***

Xan çoban tək götürür burda çobanda ney əlində
dil verir şu`ru o dilsiz neyə pey dər pey əlində
sanki el nisgilinə neydə, aparmış pey əlində
səslir itgin Saranı söz başı Xan tək hey, əlində
qalmayıbdır hey əlində

***

kimlərin xəlsəyə ney nəşvəsi mey tək aparıbdır

kimlərin ha`l-i səma`yə aparıb qal qoparıbdır
sürü-süylə yamaca qoç quzunu görnə sarıbdır!
qayalar bağrını bu nəğmə yarıbdır
heybətindən bu dağın kimləri ibhamda qalıbdır
kimləri həsrət əlin bir birə heyrətlə çalıbdır
Şah Xətayi-ləri burdan, böyük ilhamlar alıbdır
dözümü- çevrilişi, fikrə salıbdır
Savalanla ucalıbdır

Savalanın vulkanik dağları :

Bağlayıb **Buzdağı- Kəhlikdağı- Tovusdağı**, Ilğar
Hacızal, Qənbərayı boğduğu dağ, birdə **Canavar**
Cüt bacıla **Qoşa iynə, Baba məqsud** ilə **Ayğar**
Qumlu, Tiryək, Dəlalı, Qara burun, Oğlan o **Hazar**
Qaşqa, Çal, Göy, Zağalan əl bir olub etməyə iqrar
eləmiş birdə **Qızıl, Günlü, Şatır günbəzi** israr
yar durub sultana hər ləhzə desinlər ki: evin var!
Misrin əhramına tən, üç **herəm**ində əzəmət var
öc alır Kəsra tağından uca, **Kəsra** dağın ingar
gör nə görkəmlisən ay yar
kim edər hüsnünü inkar!?
Söyləyir **Külbərəyə** sankı **qızıl** ad **bərə,** gül- gül

el obandan sarı zümrüd başına tökmə, gümüş, kül
sil ağır dağı ürəkdən ola dərdin daha yüngül
dön gülüstana gəniş köksünün üstündə bitir gül!
mən qızıl, dən dolu döşdə döşəyim,sap- sarı sünbül
ki qonaq gəlmədədir yaz; ki, qonaq yaz! Gələ bülbül
bir bə bir həll ola müşgül
kül bərə, gül kimi, gül- gül

Azərbaycanın adlım dağları :

Qara göl adlı gözümlə, baxıram sultana heyran
qulağım səsdə; haçan bəs verəcək dağlara fərman?
car çəkib ellik ilə, durmaya bir kimsə o gün yan
Salavatdağı çəkib qeyha **Xoruzlu** dura bandan
Muroda, səslənə **Mahurhayı**la, yaşa; **sultan**
Qaradağ sultanı verməklə nişan çulqana **Çulyan**
Mişov olmaqla **Ələmdar**, ola **Yam** heyranı **Heyran**
Əli bəy, **Nərmiq** ilə **Qərran** olub haylana **Şiran**
O **Güney, Dingə**də dingildiyərək daşlana **Qaflan**
küşkürə zülmətə **Küşkar**, dura **Qanlı Baba, Tərcan**
verə səs Tərcana, **Tərxan**
Taşlı, Şişək, Kalal, Ovlıq, Qazan, Ağdağla **Kırıngan**
Kərbilin, Leyla, Türəcli, Qaradaş, Ağdaş o **Ləngan**

Riçə, Qəndil, Palış, Ovşar, Lıvar, Əlvənd ilə **Liqvan**
Üç təpə, Kəltə, Lalan, Şamın edə **Qəsr**ini **viran**
Şəmlik ilə edə şənlik **Mazuk, Ərşəd, Qasım, Eyqan**
Alağın, Ağlaya, Qaplantıya, tez yar dura **Yarğan**
Pəridağla **Qarı qız**, **Mərmər** üzün eyləyə **Əlvan**
gücünü odlu **Dəmirli** çəkicin saxlaya **Sindan**
Mənbərin ortada qurmaqla diyə **Malla, çəlikan**
yaşasın dağlara xaqan
Savalan tək qoca sultan
o **böyük, yaş, iri- dik, daş, uca- ağ, baş, bibi sultan**
diyə **Bülqeys**ə qura **taxt**-ını tez Şeyx **Süleyman**
Qazı etməklə qəzavət, qurula **kəsbə**də **divan**
Bayzid əldə tuta **cam** ola **gürgür, xələ, üryan**
çevrilişlər görə dövran!
qopara qorxulu üsyan
çıxa ağ günlərə, insan
baxma Kirmanda yaşır tək başına **Bağbaladağı**
amma Zənganda qürur ilə durubdur **Kiyadağı**
gülmeşə, Çilləxana, Sarı güneylə **Atadağı**
Qaragəz tək yanaşıb **Samboran**ila **Kosadağı**
Dostluğu pozmayacaq **Pirgiziday, Dostuşadağı**
Pirdağa əldə **Qara bəllə**, baxır **Ağbabadağı**

Kültəpə, Gültəpə olmaqda; **Çiçəkli, Binadağı**

Cüt haça, Bayqaradağı

Dalamır, Buzsınadağı

Dənd ilə **Pirmusadağı**

Qıbladağla Dinadağı

birdə **Heydərbaba dağı**

***

sən o dağsan Savalan, el- obanilə qarışıbsan

qol atıb Azər eli qoynuna, gül tək sarışıbsan

savaşıb zülmətilə isti günəşlə barışıbsan

Yüzdağ ilə yarışıbsan!!

Qaradağla qatışarkən **Ararat**la tapışıbsan

əlini **Bozquş**a, verməklə **Səhənd**ə yapışıbsan

Qoşadağla çapışıbsan

***

Böyük Ağrı, Aladağ, Cilov, Sırazı, Qaradaşla

Cürüdağ, Babaçiçək, Əqrə, Dəmir tək **Qaraqaş**la

Zəngəzorla **Damoruv, Top, Dəridağ**la **Qara Xaş**la

himləşibsən **Əlibaş**la

bu yanaşla, o hamaşla

***

baxma azğınlara, yol getmədə düz yolda çaşırlar
ellərin kürkünə da`yim birələr tək daraşırlar
yetənə yetməyənə hey söz atırlar sataşırlar
elə bax! qəm şələsin gör necə səbrilə daşırlar
himmət-inləndi bu dağlar yenə birlikdə yaşırlar
bir birilə yanaşırlar
ayrılıqla savaşırlar

***

Bin gölün dağları qan ağla **Araz** qoy selə dönsün
selə dönsün gözünün qan-yaşı ayrı yola çönsün
sinələrdə alışan ayrılığın tonqalı sönsün
ya gülümsə! Qurusun göz yaşın el sənlə öyünsün
ürək ehmalca döyünsün

***

bir birindən ayıran el- obamı coşğun Arazdır
bu didərginliyə; yoxsa gözünün gür yaşı, bazdır
hər qədər yağını qarğış eləsək, çox deyil azdır!
şeytana tən, natarazdır

***

ayrılıqdan nə deyim Azər eli gül kimi solmuş
sinəsin kimsəsi didmiş, saçını kimsəsi yolmuş
vay! **Xuda afərin**in (4) körpüsünün sağ gözü nolmuş!

ağlayıb körpü, kor olmuş?!
göz yaşından Savalan Urmiyə dəryaçəsi dolmuş

***

o şirin gözlərinin şor suyu nolmuş acı çaydı
vay ki dağ çeşmələrin dağlı döşündən bizə paydı
vay sənində ürəyin öz elinin könlünə taydı
ayrılıqdan söz açıldı qələmimdə sözü caydı
ağladı mənlə; qələmdə, sözümü dillərə yaydı
çünkü könlüm dolusu, nalədi- haydı
bir günüm, min haram aydı
hər işim qussədi vaydı.

ŞİRVAN DƏRƏSİ

ikinci bənd

Gedirəm sultanın eyvanına Şirvan dərəsilə
könlüm istir tanış olsun bu dağın bət- bərəsilə
göyərənti-lərilə, quşlarının ağ- qərəsilə
ürək istər daha; bir dildə, danışsın hərəsilə
sıldırımlı sərəsilə
yovşanıyla tərəsilə

kəhliyilə fərəsilə
süd, balıyla kərəsilə

***

məni Şirvan dərəsi heyran edib öz güzərində
pərdə- pərdə yaradır səhnələr insan nəzərində
gör nə yetgin yetirib burda təbiət, hünərində!
Min hünərlə yaradıb min yaraşıq, hər əsərində
ayrı bir ləzzəti var bu dərədə; yaz... səhərində
olmazın incə əsərlər görünür həndəvərində
duyur insan o dayaz fikrilə ancaq bu dərində
öz başından atır öz şur o şərində
ürəyindən kədərində

***

bir şəhərdir bu dərə xəlq olunub hər zadı daşdan
qalmayıb burda təbiət əli bir ləhzə talaşdan
durlu heykəlləri bir- bir çıxadıb incə, tiraşdan
bir məharətdəki; baxsansa seçərsən gözü, qaşdan
bir şəhərdir, yox əsər burda küdurətlə savaşdan
buna seyr eyləsə hər kim, çıxar ancaq hüşü başdan
danışar burda yavaşdan

***

bu Nigaristan edib Mani-ləri mat, öz evində

daşların hər çini bir nəqşdi mübhəm, göz evində
hər söz ustadı olar iczilə, valeh söz evində
odlu ahlarla dolar siynə, alovlar köz evində
səndə könlüm; döz, evində!

***

sankı Çin divarı, divarını bilmiş Nədir Əfşar
həvəs etmiş bu nigarxanıya baş vurmağa, sərdar
odu, Nadir baxan adıyla tanınmışdır o divar
yaraşar; bir elə divara desən Məxzən-üləsrar
bu Nizam-i ki onun var

***

bu təbiət əlidir daşları yonmuş elə mübhəm
qoyub öz ümrünü o daşların üstündə müsəlləm
gözlər işlərsə! O divarda görər ləşgər-i məzəm
ayaq üstə dayanıblar, hamısı; cəngə müsəmməm
ruhsuz cismlər eylə olunur gözdə mücəssəm
deyir insan özünə, başqa bir a`ləmdi bu a`ləm!
bürclər ərşə çıxıb, varlığa qamətlər olub xəm
Bəz qaladır mı? Bu yerdə, yaşayır Babək-i Xürrəm!
çulqayır şək məni hər dəm
başqa a`ləmdi bu a`ləm!

Qoçaqlar :
o qoşun olmaya, adlım,..... ulu, sərvərlərimizlər
həm **Cavanşer**lərimiz, həm qocaman ərlərimizlər
Cavidan, **Şəhrək**imiz **Babək** o **Azər**lərimizlər
Azinin **isməti**, **Tərxan** kimi mehtərlərimizlər
ya **Koroğlu**, **Nəbi** tək karli dilavərlərimizlər
ya **Hüsenxan**la **Əmoğlu** kimi **Heydər**lərimizlər
şanlı əsgərlərimizlər
göz önündə oların hər biri, bir sərdara bənzir
biri **Ba`qırxan**a bənzir, birisi **Səttar**a, bənzir
biridə müstəbidi xar eləyən **Cəbbar**a, bənzir
biri Kəngərli **Kərimxan**dır, ona bir para bənzir
o ki **A`sim** kimi şəstilə durub, **Salara**, bənzir
biri **Misyo**, **Hacı Xan**la biridə **Tumara**, bənzir
çoxları Aslana bənzir, çoxuda Sərdara, bənzir
bir nigarxanədi, zahirdə o bir divara bənzir
güllənib gülzara bənzir/

***

görürəm bir qayanın üstə dayanmış qoca **Qartal**
oda daşdan yonulub, vay bu nə əhval! bu nə timsal?
Babəkin qartalı bu olmaya? durmuş belə bihal
qoparır sinədə cəncal
məni cana, başa bir sal!

***

görəsən kimlərə ibhamlı suallar faş olubdur
Bababəy ayrılığından mı?, ki gözlər yaş olubdur
hətm olub Babək ölübdür, ki ayaqlar baş olubdur
daşlara sırdaş olubdur
qeyrətindən daş olubdur
Qaraqaşqa atını saldı mənim yadıma bu söz
xəyalım mərkəbi bir ləhzə dayandı, dedi: döz- döz!
uçdu təbi`m quşu, ta At gölünə saldı o dəm göz
dedi yaz yazmalı bir söz
dediyim sözlərə, ol göz

***

on iki əsr irəli Babək ürək eşqə satan gün
gündüzün al günəşi qanlı qaranlıqda batan gün
gecənin zülməti öz istəyinə birdə çatan gün
qara üz Mötəsəm, Əfşinlər əlin qanla qatan gün
yaşayış fikrini başdan, atamız Babək atan gün
elinin baxtı yatan gün

***

Qara qaşqa atın ovsarını tez boynuna saldı
üzün öpdü dedi sən getməlisən, iş yarı qaldı
sağ əlin qovzadı birdən o atın tərkinə çaldı

atının kişnəməsi birdən ucaldı
dağlara doğru, baş aldı

***

dağları gəzdi əyər, sakit olub; olmadı sakin!
oda Babəksiz öz azadlığını sevmədi lakin!
sahibin tapmağı, axtarmaqıla olmadı mümkün
gördü Babək, elinə- ölkəsinə doğma oğuldu
batlağan bu gölü tapdı, özünü atdı boğuldu
bu gölün adı doğuldu

***

obalarda yaşayanlar bu sözü nəql eləyirlər
ildə bir yol Qara qaşqa görünür burda deyirlər
Qara qaşqa kimi dağlarda qara, əynə geyirlər
qəm, qəm üstündə yeyirlər

***

At - gölündən çıxıban çevrəsinə, bir baxar ağlar
kişnəyər bir sıra, gürgür baba tək hey çaxar ağlar
hər bu Üç Qardaşı öz ağlamasıyla yaxar ağlar
bu gölün bağrına, ulduz kimi axir axar ağlar
onda şimşək şaxar ağlar

***

At gölündən, yenə təbi`m quşu, uçdu göyə; getdi

gəzdi yan yövrəni orda yeni bir səhnəyə yetdi
gəldi Şirvan dərədə mənlə yaxından görüş etdi
söylədi: yaz! Yeni gördüklərimi, söz yarı qalmış
burda varlıq əli əfsa`nələrə rəd əli çalmış
bir şəhərdir ki, xəyalı özünə bir şəkil almış
bax o təndirlərə! dev tək ayı orda yuva salmış
gördüyün o göbələklərdə; bütün daşdır, ucalmış
qayalar üstə qocalmış

***

çıx bu Şirvan dərəsindən, Savalan səmtinə sal yol
yalın əllə sal ayaqdan yalını, gəz yolun on yol
məndə ilham alaraq başının üstündə açım qol
görməli görməlilərlə doludur gör necə sağ- sol
bu uzun bir dərədir kim yaranıb mənzərədən bol
Savalan səmtinə bax! sankı yaşır orda Əbulhol
get bir; o daşla tanış ol

***

ayağım dağ kimi meyxanədi yerə, dar qəfəsimdə
böhtidən uçdu xəyalım kimi başdan həvəsimdə
duydum ancaq o dərinlikdə ağırlıq nəfəsimdə
sinədə batdı, səsimdə!

***

söylədi can! o daşa baxmağa şuridə sər istər
o daş insan! Bu səhər vaxtı günəşdən nəzər istər
göz tikib göz dolusu isti günəşdən hünər istər
yanı, bir xoş xəbər istər
al günəşdən zəfər istər
elini bəxtəvər istər.

Savalanın mə`dəni suları :

Durub əl qaşda, o dəm **daş dərə**ni gördüm uzaqdan
yenə təbi`m quşu uçdu o yeri salsın ayaqdan
getdi görsün **Vilədərrə** suyunu **Qaraçanaq**dan
xoş xəbərlər- yeni sözlər, mənə versin sulu dağdan
Sərdava, Yeddi bölük, Şabil, İlancıq, Qara, Ağdan
Sarı, Saqqızçı, Möül, Şalqon, İlan dövlü bulaqdan
Yaranal, Yellə **Gamış**la **Yarağan** adlı bozaqdan
Buşlu,Qaynarca, Qotur, Cəldə baxan tək kor ocaqdan
Allah haqqıla **Məlik**dən, o ocaqdan.... bu bucaqdan
bu qoyundan,..... o qucaqdan

QARASU DƏRƏSİ

üçüncü bənd

Sultanın zirvəsini görməyə könlüm tələsirdi
duyğular xəncəri səbrim ipin ehmalca kəsirdi
ayağı altda o **Yarğaq dağı** tək, könlüm əsirdi
sankı dustaqda, əsirdi!

***

yenə təbi`m quşu kəsdi yolumu, getmədi durdu!
məndən üz döndərib oldu küsülü boynunu burdu
Qara su səmtinə yollandı gedib orda oturdu
çay döşündə oba qurdu
qorudu orda bu yurdu

***

belə halda yenə təbi`m quşunun fikrinə qaldım
natavan halda cəsarətli könüldən tavan aldım
yolumu xəstə ayaqla Qara su səmtinə saldım
görməyə **Ov dərə**ni məndə qanad çaldım, ...ucaldım.

***

çün **Çırabba**ya qayıtdım geri qoydum **şirava`n**ı
qıbla etdim özümə **Ərcə**də sultan Savala`nı
gördüm o yerdədə çox görməli, gün orta zama`nı

Qara daşdan ox atanlar düzülüb döşdə nişa`nı
səf ilə hər birinin əldə **sina`n**ı
oxu, **şəmşir**i, **kəma`n**ı

***

gah bulud tək o **Şəhər yurdu** na (5) göz vurmada baxdım
gah xəyal **süngü**sünü **Ballı qaya** üstünə taxdım
Konturun gah dərəsin görməyə şimşək kimi çaxdım
yandırıb a`ləmi yaxdım

***

gözlərim xəstə halında yeni bir a`ləmə düşdü
yeni bir a`ləmə düşdü, başıma həmhəmə düşdü
başıma həmhəmə düşdü, dilimə zəmzəmə düşdü
dilimə zəmzəmə düşdü, ürəyimdə qəmə düşdü
Daş Qılınc adlı daşı gördü gözüm, ma`təmə düşdü
yadıma bir qəmə düşdü

***

o qılınci ki qana, qanıdı qanun diyəsində
yoxudu başqa yanıt, qandan əlavə; niyə? sində
bir gözəl xətlə yazılmışdı o tiğin tiyəsində
ay iyid! Qorxunu ömründə, ölüncə yada salma
öz qınımda məni saxlarsan əyər, heş ələ alma
çevriliş fikrinə qalma

***

gözlərim o dərədə həsrətilə sağ- sola baxdı
gah dağa, gah suya, gah həndəvərində kola baxdı
xəyalım rəssamı boylandı buruq bir yola baxdı
yanaşıb daşlarıla verdi o dəm qol- qola, baxdı
öz dübərdinə qoşarkən hola, baxdı

Savalanla ilgili Qalalar :

Gözlərim çevrəyə baxdıqca bütün şəklə sataşdı
gördü Şirvan dərəsindən bu dərə Hüsəndə başdı
bir döşü **Boynu yoğun, Növduz** ilə **Köhnə** yanaşdı
Ərşə, Münzəm kimi ərşə ucalıb gözləri yaşdı
göz sanılsa **Qaraqala** -ona- **Pişt**o**v** qala qaşdı
Çay qala, **Qahqaha** ağzında **Qalacıq**la hamaşdı
Kor qala, **Ağça**, **Qız**ın **Dev qala**sıyla **Ay**! adadşdı
bir döşü **Ruyin**, **Əlencə qala** adlandı, yaraşdı
o qədər düşdü ürək heyrətə gözlərdə qamaşdı
baxmadan qaldı! xəyal, söz gədiyindən uçub aşdı
dedi bu o dərədir daş üzü tək bağrıda daşdı
alp ərənlər uzun illər qan içənlərlə savaşdı

o Muradlar Quşu qoşdu özünü xalqına, daşdı
sataşanlarla dalaşdı.

***

buranın hər dönümü Babəkə- mehtərlərə, ləngər
yer tutar hər dönümündə neçə tiplə neçə ləşgər
hər daşın bir döşü yüz mehtərə qan almalı səngər
zülmünün qan tavanın burda verib qom-i sitəmgər
tapmayıblar salalar vaxt ələ, qan tökməyə digər
yadların başına, burda töküb Azər eli əxgər
min Cavanşir, cavan əsgər.

***

xəyalım rəssamı göz pərdəsinin hər bucağında
görməli səhnələr əks etdi qarasıyla ağında
tarixin gerçəyi göyçək yuyunub göz bulağında
söz tək aydınlaşıb işlər daha, rəssam otağında
Pir baba adlı çınar, öncə çəkib çay qırağında
Sonra rəsm etdi gözəl rəsmlə min şəkl ayağında
Qara daş körpüsünü sunra çəkdi çay qucağında
Oxudu bir para söz, tarixinin hər varağında
gəzdi bu el yaradan qanlı döyüşlər sorağında
geçəcək xatırası onda durub göz qabağında
günəşin xəstə çağında

***

o günəş ki ürəyi odludur odlar ocağında
qalayır odlu döyüşlər közünü göz çanağında
oxunur illət o dur qanlı həmasə şafağında
o günəş ki yenə Elxan adı qalmış qulağında
belə bir! indidə əzbərdir adı dil- dodağında
görünür indidə qeyrət qanı parlaq yanağında
od, alovlur qucağında

***

gördü şahid çəkilə, ondan əlavə üzə bilməz
sözlərin bir- birə, qeyrət edib ancaq düzə bilməz
dağ boyu nisgilimi süzgüdən ancaq süzə bilməz
desə, könlüm dözə bilməz

***

zülmətin çəkdi qaralmış leçəyin tez üzə batdı
o gedib gəldi qaranlıq; başımı zülmətə qatdı
günümü günlərə satdı.

MEHRAB DAŞI

dördüncü bənd

Sultanın xidmətinə yetməyə ehmal qoyuram diz
qoyam üz sidqilə **Mehrab daşı**na (6) məndə olam, biz
görməyə zirvəsini olmuş ürək ca`mıda ləbriz
hər gözəllik ki gözümdə görünür gözdə qoyur, iz
hər izi bir yaraşıqdır bu dağın, xatirə-əngiz
deməyə dil daha; a`ciz

***

gecə keçmiş yarıdan axtarıram mən hələ ya`rı
salmışam bir- bir ayaqdan, o diyarı bu diya`rı
olmuşam dağ- daş əsiri, gəzirəm nazlı Niga`rı
yorulan halda ayaq, göz dolanır Sultana sar`ı
yardım istir ala; ba`rı

***

dağ- daşa şövkə salıb Ayda dolanmaqdadı mənlə
sankı söylür mənə; himmət elə o xəstə bədənlə
get tavaf eylə niga`rın hərəmin ağ o kəfənlə
öz ürək dərdini izhara gətir odlu dəhənlə
yeniləndir ürək ilğa`rını bu qanlı vətənlə
yar görüşməkdədi sənlə

***

hey riyazət çəkirəm, hey salıram Sultanı ya`də
məndə Simurğ kimi bəlkə yetəm Qaf-i müra`də
çoxalır rəhməti yol zəhməti olduqca ziya`də
gedirəm məhzərinə çoxda, fitadə; daha sa`də
- səslirəm Sultanı da`də

***

Xırılğan çanqılı hər addımım atdıqca xırıldar
çayları gözlərə görsənməz ayaq altda şarıldar
hey ayaq atmada qar la buzunun üstə qarıldar
sanki ulduzdu parıldar

***

Ay başım üstə gəzir mənlə demək əl çırağımdır
qəhrə qarşı bu gecə mehriban ay, dağ ayağımdır
ayaq altında qalıbdır dağ, əcəb şanlı çağımdır
ruhulu, vəhyli, ilhamlı, dayaqlı, dayağımdır
ən müqəddəs ocağı dünyamızın öz ocağımdır
Savalan adlı dağımdır

***

sığmıram öz fərəhimdən bu gecə küll-i cəha`nə
könlümün istədiyiylə dolanır çünkü zəma`nə
güvənib baxtıma, şənlik satıram əhli bəya`nə

cism ağırlıq eləyir indi bu ca`nə
can, yetir sahət-i ca`nə

***

istirəm ulduz olub yer- göy ara, indi süzüm mən
Qoca **Bəhram** kimi o mavi dəniz göydə üzüm mən
salxımıyla əl atıb **Ülkər**i göylərdən üzüm mən
gətirib onları Mehrab daşının üstə düzüm mən
yenə, gəzsin mey o miyna`larımız elnaz əlində
hərəkətlə bərəkət olsun əcin Eyvaz əlində
qış sıxılsın yaz əlində
Zöhrə gəlsin saz əlində
telləri tənnaz əlində

***

şövqa gəlsin bu gəlin dağ, odı müşşate-i xilqət
varlığın tutmağıla əldə edir Sultana xidmət
ətəyin doldurur ulduzlarilə dəst-i təbiət
Sultanın ba`şına səpməklə verir Sultana zinət
gecənin a`ləmi Ayda ələ salmış yeni fürsət
düşüb istəkli bu dəryaçəsinə! Kim nədi hekmət?
eləyib yar ilə xəlvət
eləyir gizlicə söhbət

***

hanı Hessan-i Əcəm, Əfzəl-i din, şair-i Şirvan
o Bədil ibn-i Əli, şe`r o ədəb mülkünə xaqan
bu gözəl dağı gözəl tərzilə tərif edə əla`n
edə öz təb-i rəsa`sıyla çətinlikləri asan
eşidə vəsfini **Xaqanı** dilindən ulu Sultan
ola öz hüsnünə heyran.

Savalan haqqında Həkim Xaqani-dən bir qitə :

[qullası qıbladır əbdala özü əsl-i vüsaldı
xilqətən şanıda o, Kəbə kimi qütb-i kamaldı
Kəbə geymiş yaşılın! kim nədən ötrü! Bu sualdı?
geyib ehram libasın əynə o ki Kəbə-i haldı
bir xəbərdə oxudum şanını, kim kuh-i cəlaldı
üç ilin istəyi, vəsfində bu fikrə məni saldı
can nisar etməyə getdim başına, dərdimi aldı
bir gəlindir ki gözəllikdə demək: mam-i cibaldı
ətəyədək bürünüb örtüyə bu, gör nə xəyaldı
yəni bikrəm; hələdə! Gör nə yalan sözdü? mahaldı!
bu qoca arvadın ömrü neçə milyon belə saldı
bikr olarmı haradan? gör necə bir nadirə haldı!
Xizr o Musa, komasında qonaq olmaqla ucaldı
bu ki sahib komadır, olmaya dərviş misaldı

var böyük bir damağı, çoxda o bir türfə camaldı!
burnu görsənmiyə örtmüş çadıra! gör necə zaldı?
söylədim örtüyü aç, kim sənişin vizr o vabaldı
indi ki bikr deyilsən! bu utanmaq nə xisaldı?
açdı **Xaqanı** başından çadırın, böhtüdə qaldı!
xilqətin bikr-lərin söylədi görməkdə halaldı]
bu gəlin xoş xət o xaldı
özlüyü Kəbe-i haldı.

Atalar sözündən örnəklər :

Itmişəm qarlarının, daşlarının ağ- qarasında
donmuşdam sırsıra tək **buzlağ**ının (7) ban- barasında
azmışam öz yolumu qalmışam ey ... vay harasında?
sözdə acızladı gördüklərimin bir parasında!
bir məsəl vardı deyirlər bu sözü el arasında:
[yığsan o gözləri, ki sultana heyrətlə baxıblar
süzülüb gorda axıblar

***

suların bir- birə qoşsan Xan Araz misli olar Kür
qalasan bir- birinin üstə haman gözləri cəm- cür
Savalandan gəli hündür

***

ağlayanda Savalan dağı ovunmaq daha bilməz
çən- bulud, ağ başı üstündə durar; gendə, çəkilməz
Savalan qarsız, iyid dəhrdə yarsız ola bilməz!
Savalan vursa birin, can qutarıb birdə dirilməz]
kimsə göz yaşını silməz

***

(and ola haqqına) haqqı yad əliylə danılıbdır
(cənnətin yeddi dağından biri), bu dağ sanılıbdır!
ki (Muğanda Savalanla tanılıbdır)

***

məndə yaslı Muğanam ay Savalan gözləri ağlar
ayrılıq dərdi kəsibdir amanım könlümü dağlar
ayrılıqdan günü gündən solub, ölməkdədi sağlar
qapımı zülm əli bağlar

***

mən, o haqlı Muğanam haqqımı olmaz dana korda
bir ölümdür yaşayış insana, həm ölkəyə, zorda
bölünüb barlı- hasıllı döşümün sufrası morda
yaşıram şer kimi torda
yarı, burda- yarı, orda .

İstək :

Var əlaqən bilirəm el obama ay qocaman dağ
elə birlik məramın mənşurunu ölkənə iblağ
verə ta səs səsə sellər kimi ellər axa tez rağ
səndə şimşək kimi ya`ğilərin üstə od olub yağ
qəhrini ləms eləyib zağ o zəğənlər əsə zağ- zağ
dağ ürəklər ürəyin dağlamağa bizdə vuraq dağ
səndə bax onda fərəhlən bizə, olsun damağın çağ
o qədər gül ki, gözündən axa şənlik yaşı fağ- fağ
nazlı yaz gəlməsini görməyilə güllənə dağ- bağ
ola tar günlərimiz ağ
(Savalanca yaşayaq sağ)

***

qoy şirin gözlərinin şor suyu donsun şirin olsun
vur beheşt ordusunu, hər bir ayın fərvədin olsun
kövşənin gülşənə çönməklə, behiştin bərin olsun
o məsiha nəfəsin odlu ürəkdə sərin olsun
yenədə nazlı qərənfillərimiz nazənin olsun
yenidən səndən alıb can sara, gəlsin gəlin olsun
Xan Çobana yəqin olsun

izzətin birdə min olsun

….adına afərin olsun

***

qurbətin başdan amansız daşın atmaqla qaçaqlar

yenə tutsunla sorağın o qaçaqlar, o qoçaqlar

hayla gəlsinlər anan qoynuna dərmandə uşaqlar

bağrına çəkməyilə, bir- birini isti qucaqlar

güllənib gül kimi gülsünlə bütün qonça dodaqlar

qorc ayaq durmada sən tək vətən uğrunda ayaqlar

yenə yansın kor ocaqlar

yaşasın fəxr ilə sağlar .

1988-m

Savalan haqqında: El dilindən, atalar sözü

1- Savalana heyrətlə baxan gözləri bir- birinin üstə qalasan, Savalandan uca gələr

2- Savalan başından qar qurtaran gün, qiyamət qopacaq.

3- Savalan ağlayanda ovunmaq bilməz.

4- Savalan başı həmişə tufanlı olub.

5- Savalan qarsız, iyid yarsız olmaz.

6- Savalanın qəzəbinə gələn, can salım qurtara bilməz.

7- Sultan Savalanın haqqına and olsun.

8- Savalan beheştin yeddi dağından biri dir.

9- Savalansız nə Araz?

10- Muğan da Savalanla tanınıbdır.

11- Savalanca yaşayasan.

12- Savalanın bərəkətindəndir.

13- Savalan bərəkət (rəhmət) dağıdır.

14- Savalan, sultandır.

15- Savalan dağların sultanıdır.

16- Savalan vəhy ocağıdır.

17- Sultan Savalanı şəfi gətirsən ilanında sənlə işi olmaz.

18- Savalanın rəhməti qəzəbindən çoxdur.

19- Savalan kimi ağır gəl (ol). "öyüd verməkdə işlənər"

20- Sultan Savalanın qəzəbinə gələsən. "qarğışda işlənər"

21- dan ulduzu Savalanın başında durar "umud verməkdə və səhərin doğulmasini yetirir"

22- Savalan mehriban dağdır.

23- Savalan diri dağdır.

24- Savalan uca baş dağdır.

25- Savalan dünyada dağların gözəlidir.

26- Savalan dağı, el dağı.

27- Süleyman Peyğəmbər, çəliyin Savalan gölünə atıb, Zəmzəm quyusundan götürüb.

28- Savalana təmiz getməsən, əziz qayıtmazsan.

Savalan haqqında: El dilindən, garaylılar

(1)

Savalanda bitər lala Babək qanı coşğun qala
at gölünə göz tikənlər məni salar haldan hala

(2)

Savalan ağ buludlarda bir dayaqdır umudlarda
dünya boyu yaşayacaq mahnılarda, surudlarda

(3)

Savalanam ağ başım var hamı dağdan çox yaşım var
Azərbaycan ana yurdum Səhənd tək qardaşım var

(4)

Savalanın başı güllər ay sallanıb göldə əllər
Mən tanıram öz yarımı gümüş buxaq- incə bellər

(5)

Savalanda külək əsər külək çırpar, ürək əsər
məni, səndən ayırsalar qəm küləklər, dilək əsər

(6)

Savalanın başı güllər yol başlayıb köçür ellər
ellərin, saxla qoynunda yaşasınlar uzun illər

(7)

Savalana bulud çökər üstünə mirvarid tökər
dərələrdən çən ucalar ağ tiftikə başın bükər

(8)

Savalanam yalım- yolum Kəsra kimi uzun qolum
vətən üstə qurban olun - iyidlərə, qurban olum

(9)

Savalanım şanlı dağım uca boylu, çal papağım
uzaqdan baxıram sənə yaxına gəlmir ayağım

(10)

Savalandan yol salmışam iyidlərdən dərs almışam
deyin Elxan qardaşıma düşman içrə tək qalmışam

(11)

Savalanın ətəyindən çıxdı arı pətəyindən
ay qız məni qoyma yalqız əlim üzmə ətəyindən

(12)

Savalan yox, ocaq denən gədiklərin ducaq denən
açıq- gözəl, döşlərinə bir mehriban qucaq denən

(13)

Savalana dolu düşdü ozan ona mahnı qoşdu
Dəli baxtım aman verdi yarım mənlə bir görüşdü

(14)

Savalanın çox düzündə kəhlik gəzər kəhrizində
gəzdim xəyal dağlarında gözüm yarın ağ üzündə

(15)

Savalanam sevgi məndə istək məndə sevgi məndə
Varlığına güvənirsən bax sözümə, qal vətəndə

(16)

Savalanda gecə yarı külək yıxar, dam- divarı
oba köçüb tək qalmışam gözləyirəm itgin yarı

(17)

Savalanın uca başı şırım- şırım sızlar başı
çox dolandım, ömür sürdüm olanmadım el sırdaşı

(18)

Savalanam sevgi dağı ətəklərim el yatağı
zirvəm gözəllik görkəmi sinəm aslanlar oylağı

Savalan haqqında: El dilindən, bayatılar

(1)

Sel gəldi, aşa- aşa çaylardan, daşa- daşa
hansı dağ qoya bilər Savalanla, baş- başa

(2)

Savalan başına bax döşündə daşına bax
Mən sevdiyim gözəlin gözünə - qaşına, bax

(3)

Kağızın ağına bax bostanın tağına bax
Məni yada salanda Savalan dağına bax

(4)

Savalan mənə bir bax çevrəmdə çənə bir bax
müsibət dənizində sınıq yelkənə bir bax

(5)

Savalanda duman var yar vəslinə güman var
Göstərmə ay camalın həsrət çəkən, uman var

(6)

Savalanın düzü var üstündə qar- buzu, var
belə ki yar sallanır ürəyində sözü var

(7)

Savalanın buzu var üstündə sal buzu var
Belə ki yar qaş salıb ürəyində sözü var

(8)

Savalana düşdü qar köçdü tərlan köçdü sar
Ürəklər şüşədəndir sındırsalar kim yamar?

(9)

Savalanım buz bağlar dövrəsi yarpız bağlar
Qaş- gözünün şənində aşıq gələr söz bağlar

(10)

Savalan bir buz bağlar dövrəsi yarpız bağlar
Məni bir gəlin oxlar yaramı bir qız bağlar

(11)

Savalanım buz bağlar dövrəsi yarpız bağlar
Kərəmin Əslisindən aşıq gələr söz bağlar

(12)

Savalanda yar gəzər tellərin darar gəzər
Qiyamət o gün qopar yar- yardan, kənar gəzər

(13)

Savalanda yel əsər düşər üzə tel əsər
doğru söz, tez yer salar qılışdanda pis kəsər

(14)

Savalan qan yeridir qızaran dan yeridir
iki məmən arası yatmağa can yeridir

(15)

Savalanda yel əsər adamı şaxta kəsər
yazın alım qadasın belə yardan kim küsər

(16)

Savalan, gün açılır hava düzgün açılır
yetir arzım yerinə sanki, düyün açılır

(17)

Savalan qarsız olmaz bağları barsız olmaz
Təbiətin rəsmidir gözəl vüqarsız olmaz

(18)

Savalanda quş olmaz bahar gəlsə qış olmaz
Nabud edin düşmanı düşman ilə cuş olmaz

(19)

Savalan gülsüz olmaz gülü bülbülsüz olmaz
Fələk yandıran ürək dərdsiz- nisgilsiz olmaz

(20)

Savalan, səfalı dağ qarlı, baş- güllü, ayaq
ürəyi, od- gözü, yaş alnı, açıq- üzü, ağ

(21)

Savalana ol aşıq balın ye, qaşıq- qaşıq
Lalasıyla hər zaman qol- boyundur sarmaşıq

(22)

Savalanım, sultanım başına mən dolanım
Araz boğsa Saranı dığlayar Xan çobanım

(23)

Savalanım, sultanım himmətli qəhrəmanım
qoyma Sara boğula gəlincə Xan çobanım

(24)

Əziz Savalan dağım yatıbsan oyan, dağım
bura zülmət xanadır necədir oyan, dağım

(25)

Savalan diri dağdır dağlarda iri dağdır
döşündə lalaların biri, gül- biri, dağdır

(26)

Savalan döşü güllər hallanar gələn ellər
yadıma bir- bir düşər yar ilə keçən illər

(27)

Savalan qaçaram mən laçın tək uçaram mən
bu Şirvan dərədən yol Şirvana açaram mən

(28)

Savalanda qar olsun ağ geyinsin var olsun
Namərdə kim baş əydi ona görüm ar olsun

(29)

Savalan, Sara köçdü bilmədim hara köçdü!
suda ay tək boğuldu yay- yazım, qara köçdü

(30)

Sultanın yastı yolu su gəldi basdı yolu
gedirəm yarı görəm Əzrail, kəsdi yolu

(31)

Savalandır kar salan yer üzünə qar salan
Yüz il özünə gəlməz bir gün gözdən yar salan

(32)

Savalan qarı məndən bağların barı məndən
insafsız yara bir bax əsirgər narı məndən

(33)

Savalanın düzündə qoşa xal var üzündə
mənim nə günahım var günah, sənin üzündə

(34)

Savalan düşsə ləcə tanımaz, gündüz- gecə
əyilməyib qaməti nə mehə, nə gərmicə

(35)

Savalan, baxmaz kəcə düzdür özü, gör necə!
ay ki çıxar gərdişə alnın öpər hər gecə

(36)

Savalanı qar aldı dağ- dərəsin sar aldı

Göydən düşən bir daşla od ocağı qaraldı

(37)

Savalan bağ olaydı dövrəsi dağ olaydı

anam can verən zaman qardaşım sağ olaydı

(38)

Görünən Savalandır sultandır, Savalandır

nə dərdim kimi dərd var nə yaram sağalandır

(39)

Savalanın dərəsi sıldırımı, sərəsi

Döşündə yaşayanın bir aslandır hərəsi

(40)

Savalan qış uzandı acı qar- qış uzandı

düyün basdı düyünü nə edim, iş uzandı

(41)

Savalan yaz oyandı gülşəndə naz oyandı

Hicran çəkən aşığın bağrında saz oyandı

(42)

Savalan uca dağdır dövrəsi güllü bağdır

Həcərə xəbər verin Nəbinin başı sağdır

(43)

Savalan çəndə itdi sinəsində ot bitdi
döşündə yaşayanlar Nəbi kimi iyiddi

(44)

Savalan el dayağı qoç iyidlər yatağı
Xızır tapan çeşməni yada salar bulağı

(45)

Savalan el dayağı görkəmlidir ocağı
iyidlərin arxası namərdlərə göz dağı

(46)

Savalana qar gəldi heyva əkdim, nar gəldi
kül tərlanın başına oylağına sar gəldi

(47)

Savalan! ay Savalan! iyid sultan Savalan
səs ver mənim səsimə ay bağrı qan Savalan

(48)

Savalan sultanımdır sultanımdır, canımdır
şanlı adı dünyada mənim, adım- sanımdır

(49)

Savalan məni dindir varlığın cana sındır
sənin qəmin mənimsə mənim dərdim sənindir

Sultan Savalan: Poemasının izahları

ADLAR İZAHI

1- Elxan: Xurrəmdinli Babəkin ayama“ləqəb”-larından biri.

2- Əbulhovl: Misr ölkəsində ən böyük daşdan yonulmuş heykəlin adı.

3- Azər: İbrahim Xəlilin atası, Azərbaycanlıların böyük babası..... və birdə Babəkin on altı yaşında düşmən əliylə öldürülən oğlundan ibarətdir.

4- Azin: Xurrəmdinlərin birisi və Babəkin böyük sərdarının adıdır.

5- Aslan xan: Ərdəbil mahalından, və yürtçü elindən baş qaldırıb və Naxçıvan mahalına qələbə çalan qoçağın adıdır.

6- Əfşin: Üsteroşnəli Keykavus oğlu Xıdır, Mötəsəm Billah xəlifənin, böyük başçılarından biridir ki Babəkin əsir liyinə və ölümünə bais olmuşdur..... Xidir, türkcədə, kiçik çillə sonu on günlük qarı küləyinin ön gecə- sindən ibarətdir ki o gündə olan uşağın adını bəzən bu adla dindirirmişlər.

7- Eyvaz: Köroğlunun sərdarlarından birisidir, açıqlamalıyıq ki keçmişdə, kənizdən doğulmuş oğlana türk dilində Eyvaz deyirmişlər.

8-Bəbk-Bababəy,Bababək Babək: Ərdəbildə,Səreyin bölgəsinin üstündə yer tutan Meyməndli (Meyməz), sultan Savalan balası; dünyanın və məxsusən Azərbaycan ölkəsinin ən böyük adlım qəhrəmanı, və yadlar istilasının əleyhinə çalışan qoçaqdan ibarətdir, o qəhrəman milladın 816-ci ilindən 837- inci ilinə dək Əbbasi xəlifələri ilə döyüşüb nəhayətdə mötəsəm əli ilə tutulub və Bağdadda orucluğun on dördündə vüqarlı bir inanılmaz halda vətən və el və azadlıq yolunda, öldürülübdür, Səid Nəfisinin idiyasına görə; İslamdan qabaq İran tarixindən, xəbərsiziksə,

sonrakı tarixdən bu günə dək bu ölkəyə belə bir iyid qəhrəman gəlməmişdir.

9- Bağır(Ba`qer) xan: Azərbaycanda istibdad əleyhinə çalışan və Məşrutə inqilabının ikinci pərçəmdarıdır.

10- Bədil ibni Əli: Şirvanlı həkim Xaqaninin öz adı və atasının adıdır və Əfzəleddin və Hesan - e Əcəm onun ayama "ləqəb"larından sanılır.

11- Hacı xan: Məşrutə inqilabının mübarizlərindən və Misyo Əlinin böyük oğlunun adıdır.

12- Hüseyn xan Bağban: Azərbaycanda Məşrutə inqilabının fədakar-larındandır.

13- Cavidan ibni Şəhrək: (Sağraq- Səğrəq "sağər "- Səğrək- Sə`rək- Şəhrək) oğlu (Hədan- Hadan- Cavdan- Cavidan) Azərbaycanda əkinçilər inqilabının böyüyü və Babəkin müəllimi olan qoçağın boy- soyudur. Cavidan, miladın 807- inci ilindən 815- inci ilinədək yadlar qarşısında dayanıb nəhayətdə Əbbasi xəlifəsi mə`munun, Əbu İmran Konyalı başçılının əli ilə ölübdür.

14-Cabbar Muğanlı: Məşrutə zamanında Məhəmməd şah əleyhinə mübarizə aparmışdır.

15- Cavanşir: Girdiman mahalının hökmranı, Tirdat oğlu Varaz-ın oğlunun adıdır ki İslam sədrində, illər boyu vətən işğalçılarının qabağında durub, nəhayətdə Azərbaycan yolunda canını qurban etmişdir.

16- Heydər Əmoğlu: Riza şah dövründə, şahlıq əleyhinə Azərbaycanda çalışan qəhrəmandır.

17- Xançoban: Saranın sevgilisi, xanlar zülmünün qarşısında duran bir çobanın adıdır ki xanlıq ayaması "ləqəbi", həmasəli fədakarlıqlarına görə,

el dilindən almışdır. Deməliyik ki Nəbati şairin bir təxəllüsüdə Xançobandır.

18- Xizr: əfsa`nələrdə həyat çeşməsinə malik olan peyğəmbərdən ibarətdir.

19- Dədə Qurqud: Oğuz elinin böyük ozanı- elçisi və dahi babalarından birisidir.

20- Sara: Xançobanın sevgilisi və bir zalim xanın təcavüzü ilə rastlaşan bir namuslu gəlinin adıdır ki o fa`ciədə namusunu qorumaq-çın özünü Arpa çayına atmaqla boğulub və xəzərə qoşulmuşdur.

21- Sərdar Muğanlı: Qacar şahı Müzəffərəddin şah zamanı illər boyu dövlət məmurları ilə mübarizə aparmişdir.

22- Sa`lar: Bağır xan, Milli Saların el dilindən aldığı ayama dir.

23- Səttar xan: Məşrutə zamanında, Azərbaycanın ən böyük qoçağıdır ki İran tarixində Milli Sərdar tanınmışdır.

24- Şah Xətayi: Səfəvilərin sərsilsiləsi, Şah İsmayilin şe`rdə təxəllüsüdür.

25- Şəhrək (Sağraq- Səğrəq- Sə`rək Səhrək- Şəhrək): Cavidanın atasının adıdır ki illər boyu əkinçilər qiyamının başçılığını öhdəsinə almışdır.

26- Tərxan “ Əmir- dərbarda təklifdən və əvarizdən məaf olan, mənasına” : Babəkin böyük sərdarlarından biridir.

27- Tu`mar Ərşəli: Məşrutə mübarizəsində istibdad əleyhinə çalışan bir qoçaq dir.

28- A`sim: Babək qoşununun döyüşgən başçılarından birisi

29- İsmət: Kürd qoçaqlarından və Xurrəmdinlərin sərkərdələrindəndir.

30- qərənfil: mi`xək mə`nasına, Azərbaycanın gəlin qızının adıdır ki Ərəb işğalçıları onu Harunerrəşid xəlifəyə kəniz göndərmişlər.

31- Kərim xan: Kəngərli, Ərdəbil mahalının mübarizlərindən və İrəvan fatehlərindəndir.

32- Koroğlu: milli həmasə yaradan Azərbaycan qoçaq-ıdır ki şah İsmayil əsrindən qabaq yaşayıb və tarixdə özündən bir çox əfsa`nələr qoymuş.
33- Ma`ni: Çin ölkəsinin böyük rəssami və əfsa`nələr yaradan bir rəssamdır, onun nigarxanasının adı indiyədək tarixdə özünə yer açmışdır.
34- Misyo Əli: və ya Əli Misyo, Məşrutə zamanı; Mərkəz-i qeybi organının başçılı və Məşrutə canbazlarındandır.
35- Mötəsəm: Harunoərrəşid-in Türk qızından üçüncü oğlu, Əmin və Mə`mundan sonra hükumətə yetişən xəlifədən ibarətdir.
36- Muğan: şairin təxəllüsü və Zərdüşt peyğəmbərin kahin (ruhani)lərinin ləqəbi və Azərbaycanın Araz suyunun vəsiləsi ilə iki yerə bölünmüş yurdunun adı və birdə Fars ədəbiyatında iham üzrə bu ad mə`nəvi baxımla Həzrəti Əlinin ləqəblərindən (Piyr-i Muğan- pir-i xərabat-i Muğan) dır.
37- Nəbi: şahlıq əleyhinə qalxan qaçaq - qoçağın adıdır ki mahnılarda və onun sevgilisinin adı Həcər adlanmışdır deməliyəm ki Nəbinin səksən neçə yaşlı qardaşıyla şa`ir, gənc çağında müsahib olmuşdur .
38- Nədir Əfşar: Nadir şahdan ibarətdir, elatların dilindən - dilə gəzdiyi sözlərə görə, Nadir şah; Muğan mahalında başına tac qoyandan sonra Şirvan dərəsindən görüş edib və o divarın üstünə qalxıb və Şirvan dərəsin göz önündən keçirdibdir, ki o divara elat ara (Nədir divarı) deyirlər.
39- Nizami: Gəncəli dahi həkim və böyük şa`irin adıdır ki Məxzənüləsrar onun beş bölgülü şe`r kitabının birinci bölgüsüdür.

BİTGİLƏR İZAHI

1- əmən köməncı, əbəm komacı: pənirək
2- bənövşə: bənəfşə
3- böyma dərən: bomadəran - bərtaşək

4- budəgən, böyütgən : böyütgən arağının bitgisi

5- tərə: cür bə cür dağda bitən yeməli göyərəntilərinin birgə adı

6- sarmaşıq: piçək, zeyməran

7- şənbəllə: şənbəlilə, bir cür yoncaya oxşar tərədən ibarətdir.

8- şüvərən: xakşir

9- ilişim: piçək-i səhrayi, papital- əşəqə

10- quş üzümü: tacrizi, ənəbülsəb- səg ənguri

11- qərənfil: mixək gülünün bir növü

12- kəhlik otu: kakotu, avişən, as buyə, si sənbər

13- göbələk: qarç

14- göy baş: bir cür çöldə bitən göyərənti

15- gəvən, çoban yastığı: qətad- baleşe aşeqan , kitrə “ kətira” ondan tutulur

16- lala: lalə

17- nəsrin: nəsrin gülü

18- vel: vəl, pencə şəkilində meşələrdə bitən göyərənti.

19- yarpız: fudənc, punə

20- yemlik, şingi: şənəg, zərqun, pa`kəlağı, bir cür xam yeməli tərə.

21- yovşan: xaraguş- dərmənə, bir cür yolğun.

22- yonca: yonce

ÇAYLAR İZAHI

1- Acı çay: Savalan dağlarının sol çiynindən baş alıb Heris mahalından keçəndən sonra suyu, Xoca döşlərində şor olub və Təbrizdə Sırxab dağlarının ətəyindən keçəndən sonra dolanıb Urmiyə gölünə tökülür. Bu

çayın uzunluğu 265 kilometirdir li bu su artıqraq şor olub acıya çaldığına görə ona Acı çayı deyilir.

2- Araz: Türk ədəbiyatında sultan və xan adlanan Araz, səadət - xoş baxt mə`nasına və Ərəb tarixində Əlrəs və Fars tarixində Ərəs adlanan, çaydan ibarətdir. Bu böyük çay Ararat riştəsindən sanılan Ağrı dağları ki ətəklərində yerləşən bir çox göl ki Bin "Min" gölə adlanırlar Ərzrumun güneylərində vaqe olmuşlar, baş alıb və Palan tökən dağının (3135 metir ocalığıdır) sağ və güney döşündən keçəndən sonra Qars dağlarının ətəyindən keçib və Ərmənistan ölkəsinə yol salandan sonra yenə qayıdıb Makı mahalında Zəngənədən ta gürcüstan sərhəddinə dək Azərbaycan ölkəsini iki yerə bölüb nəhayətdə 1072 kilometir yol gedəndən sonra və bir sıra çaylar güney və quzey Azərbaycanda ona qoşularkən, Kür "sınmazın,cürətli,ürəkli" çayı adlanıb və nəhayətdə Xəzər dənizinə tökülür. Bu çay Türkəmən çay, pay bölüşündə, 950 kilometir uzunluqda İran və Şurəvi (Sovet birliyi) sərhəddi tanınıbdır ki o fa`silədə Araz çayının 805 adası vardır ki bütünlükdə adamdan boş adadırlar ki onların 427 parçası İran və 378 parçası Şurəvi malikiyətindədir.

3- Ağlağan çayı: Savalanın güneylərindən baş alıb və Nir mahalının üstündən keçib nəhayətdə Qarasu çayına tökülür.

4- Ağ çalı çayı: Savalandan baş alıb və nəhayətdə Qarasu çayına qoşulan çayların birisidir.

5- Ağ çay: Nəmin mahalında cərəyan tapıb nəhayətdə Araza tökülür.

6- Avarsı çayı: Savalandan baş tutur və Qarasu çayına qoşulur.

7- Unar çayı: sultan Savalanın quzey çiynindən baş alıb, Qotur gölünün yanından keçib Unar kəndinin torpağını doyurur.

8- Əhər çayı: Savalanın gün batan cinaqlarından baş alıb və Əhər mahalından keçib axirdə Qarasu çayına tökülür.
9- Erdi çayı: Savalanın gün batan döşlərindən baş tutur və Erdi köşənlərini suvarır.
10- İlanlı (İlancıq) çayı: Savalanın gün çıxan ve quzey cinağından baş alıb Cəbədər və İlancıq mahallarını dolanır.
11- Barı çayı: Savalandan baş alıb və Barı kəndində o adla adlanır.
12- Balıqlı çayı: Savalanın güneylərindən baş alıb və Ərdəbil şəhərini iki yerə bölən çayın adıdır ki nəhayətdə Araza tökülür.
13- Buqçul çayı: Savalandan baş alıb və Sarab mahalında cərəyan tapır.
14- Böyük çay: Ərdəbil mahalında, Ağmiyan kəndindən keçən çayın adıdır.
15- Pəşo çayı: bir ayrı adı da Pislərdir, Savalandan baş tutur və Sarab mahalında Acı çayına qoşulur.
16- Tacyar çayı: Savalandan axıb Sarab mahalından keçəndən sonra Acı çayına tökülür.
17- Corablı (Corab çayı) : Savalanın güneylərindən axıb Nir mahalını doyurur.
18- Cinni Çay: Savalanın quzey cinağından baş alan çayların birisidir.
19- Çəki çayı: Savalandan baş tutan və Meşkin mahalında axan bir çaydır.
20- Xor xor çayı: Savalanın quzeylərindən Xiyov mahalına axan çaydır.
21- Xiyov çayı: Savalandan axıb və Xiyov ya Meşkində o adla adlanır.
22- Dəravar çayı: Savalandan baş tutan və Dəravar kəndində o adla adlanır.
23- Dərə ört çayı: Ərəb tarixində Dərvəd və Fars tarixində Dərrə rud adlanan çayın adıdır ki Qarasu və Xiyov və Əhər çayları bir biri ilə

qatışandan sonra Xoruzlu mahalında bu adla adlanır, bu çay; keçmişdə, Azərbaycanlı Xurrəm dinlərlə Ərəblərin qanlı döyüşlərinə tanıq olmuşdur.
24- Dövrüş çayı: Savalandan baş alıb və Dövrüş kəndində bu adla adlanır.
25- Dursun xoca çayı: Savalanın gün çıxan döşlərindən baş tutub Dursun xoca kəndindən keçir.
26- Razlıq çayı: Savalanın quzey dağlarından baş alıb Razlıq dağı(göy xət lə yazılmış lüvhə dağı)-nın ətəyində o adla adlanır.
27- Zilkəliyən çayı: Savalanın quzey dağlarından baş tutur.
28- Sarı çay: ona Germidə Sarı qəmiş çayı deyirlər və mahaldan keçəndən sonra Xoruzlu mahalında Balha adlı çayla qatışıb nəhayətdə Araza tökülür.
29- Saqqızçı çayı: Savalandan baş tutur və Nir mahalında acı çayına tökülür.
30- Samanlı çay: Salavat dağının gün çıxan ətəklərindən keçəndən sonra Araza tökülür.
31- Səmyan çayı, : Ərdəbilin quzey tərəfindən keçir. Onun Ərdəbil şəhərinin yaxınlığında, üstünə vurulan körpü tarix baxımıyla ən əski körpü tanınıbdır ki ipək yolunun üstündə qərar tapırmış.
32- Subaşı çayı: Savalanın quzeylərindən baş alan bir çayın adıdır.
33- Qaynarca çayı: Savalanın quzeylərindən baş alıb və qaynarca gölünün yanından keçən çaydır.
34- Qarasu çayı: Savalanın ən böyük və adlım çayıdır ki bu çay Qarasu dərəsində cərəyan tapır ki sultanın bu dərədən; ucalığı 3400 metrə yetişir. Demək bu çay və bu dərə bir üzük qaşı kimi sultanı araya alır və bu çayın uzunluğu on iki kilometrdən artıqdır, bu çayın üstündən çəkilən körpülərin bir neçəsinin ömrü iki min ildən artıqdır ki oların birincisi Zağalan körpüsü (Ərdəbil- Təbriz yolunun üstə birinci yeddi gözlü körpüdür(və

ikincisi Səmyan körpüsü (Altə gözlü bir körpüdür) və üçüncüsü Kəhər alan körpüsü (Altı gözlü körpüdür) ki onun ömrü Səlcuqi əsrinə yetişir və dördüncüsü yel körpüsüdür ki sarı qışlaq və gül təpə mahalında Qarasu çayının üstünə çəkilmişdir.

35- Qutlar çayı: Savalanın gün batan quzeylərindən baş alıb və Qutlar kənd "göl"inin qırağından keçir.

36- Quru çay: Sarab şəhərinin üstündən axıb və Ərdəbil mahalından sovuşur.

37- Kür çay: sərhəd tanılan Araz çayına bir sıra çaylar şimalı və cənubi Azərbaycandan qoşulandan sonra Gürcüstan ölkəsində Kür (Kura) çayı adlanıb nəhayətdə Xəzər dənizinə tökülür.

38- Girdə çay: Nəmin mahalında axan bir çayın adıdır.

39- Göyərçin çayı: Savalanın yüz adınlı dağından baş alıb və göyərçin kəndindən keçən çaydır.

40- Ları çayı: Savalanın quzeylərindən baş tutur və Ları mahalında bu adı özünə alır.

41- Lay yün doğa çayı: Savalanın quzeylərindən baş tutan çayların birisidir.

42- novduz çayı: Əhər- Meşkin yolunun qırağında vaqe olan çayın adıdır.

43- Nosuyun çayı: Savalandan baş tutan və Sarabda Qırx qızlar kəndindən keçən çayın adıdır.

44- Nüvədi çayı: Nəmin mahalında, Ərdəbilin on kilometirliyindən keçən çaydır.

45- Niyar çayı: Niyar kəndindən keçib və nəhayətdə Qarasu dərəsinə tökülür.

SAVALANIN VÜLKANİK DAĞLARININ İZAHI

1- Oğlan dağı: ucalıqda; 3105 metirlik, Kəsra dağının sol çiynindən quzeyə sarı çəkilən dağın adıdır.

2- Ayğar dağı: sultan savalanın güney ayağında duran girdə dağın adı, və birdə canavar dağ və Oğlan dağ və Dəlalı dağlarının arasında vaqe olan dağdır.

3- Baba Məqsud dağı: sultanın güney cəhətindən gün çıxana sarı vaqe olmuşdur ki ucalığı 3696 metrə yetişir.

4- Buz dağı: sultanın quzey ətəyindən gün batana sarı bir dağın adıdır.

5- Tiryək dağı: Kəsra dağın sol çiynindən Sarab şəhərinə sarı çəkilən dağ dır ucalığı 3051 metirdir.

6- Canavar dağı: Kəsra dağının sol çiynində uca dağdır.

7- Cüt bacı dağları: Baba Məqsud dağının quzey sağ əlində iki cinaqlı dağdır ucalığı 3500 metrə yetişir.

8- Çal dağ: Sultanın quzeylərində qərar tutubdur.

9- Hacı Zal dağı: Kəsra dağının güney cəhətində olan dağın adıdır ki bir tərəfinədə Haraz deyirlər ki ehtimalən, Haraz Muğun adından alınmış addır və Haraz Muğ gədiyi onun sağ ətəklərində qərar tutmuş. O gədik, Zərtüşt peyğəmbərin Moğlarının Riyazət çəkdiyi yer tanınmışdır.

10- Herəmlər: Sultanın gün batan əlindən güneyə sarı çəkilən üç dağın adlarıdır ki bu dağların ən ucası 4800 metrə yetişir və dağlar, zahiri şəkilinə görə keçmişlərdə özünə Misrin Salisə herəmlərinə tay ad qazanmışdır.

11- Dəlalı dağı: Canavar dağının gün batanından quzeyə sarı qərar tutmuşdur.

12- Zağalan dağı: Kəsra dağının güney ətəklərində və Sarabın 12 kilometirliyində vaqe olan dağdır, o dağın zirvəsində iki qitə Göy Türk yazısıyla yazılmış kətibə vardır.
13- Savalan: Azərbaycan ölkəsində ən uca volkanik dağdan ibarətdir ki dünyada sıra dağlardan sanılmır, bu volkanik dağ, üçüncü dövranın axırlarında və dördüncü dövranın əvvəllərində, Dəmavənd- Əlvənd – Səhənd və Ağrı dağlarıyla birgə atəşfişan etmişdir ki bir milyon- beş yüz min il onun donmağı ömür sürmüşdür, bu volkanik dağa dağa bağlı dağların birlikdə, uzunluğu, 65 kilometrə və eni 48 kilometrə və boyu beş min metrə yetişir, bu dağın bu günə dək üç volkanik ağzı tanınmışdır, ki birincisi pənahgahın üstündə böyük və girdə cola yerdir ki çuxurda olduğuna görə zaman ötdükcə böyük daşlarla dolmuşdur və orada daşlı bulaq, adlım bir bulaqdır, və ikincisi herəmlərin sultana sarı böyründə vaqe olmuşdur, və üçüncü volkanik ağzı sultanın zirvəsində, qar- yağış vəsiləsi ilə dolub və gözəl gölə dönmüşdür ki əzəmət və gözəllik baxımıyla el içrə dəryaça deyilir.
14- Şatır günbəzi : Soma (Someə`) kəndinin üstündə, keçmiş nəsillərdən yadigar qalmış bir təpənin adıdır ki orada Əşkani əsrində tikilmiş bir bürc vardır.
15- Tovus dağı: Sultanın quzey əlində və gün batana sarı bir dağın adıdır ki o dağın ətəklərində böyük və gözəl gölün adınada Tovus gölü deyirlər.
16- Qaşqa dağ: Sultanın quzey çiynindən gün batana sarı bir dağın adıdır.
17- Qara burun dağı: Sultanın quzey ayağı altında, Ayğar dağıyla yanaşı dağ adıdır.
18- Qənbər ayı boğan dağ: Sultanın quzey ayağı altında, və Meşkinə sarı çəkilən dağın adıdır.

19- Qoşa iynə- sıldırımlı bir cüt hündür qayalı dağın adıdır ki üçüncü herəmin imtidadında, güney doğuya sarı, Alvars kəndinə doğru çəkilibdir bu dağın indiyə dək qoşa qayası dağçılar əliylə, və bəlkədə heç bir insan ayağıyla alınmamışdır.
20- Qumlu dağ:Sultanın güney ayağında 3800 metrə ucalıqla yerləşən dağdır.
21- Qızıl bərə: Kül bərəyə yanaşı, Unar çayının sol əlində vaqe olubdur.
22- Qızıl dağ: Qotur gölünə yetişmədən gün çıxan cəhətdə qərar tutmuş.
23- Kəsra dağ: Sultanın sol çiynində və herəmlərdən sonra güney cəhətində uca və yapalaq dağdır ki ucalığı 4780 metrə yetişir.
24- Kül bərə: Unar çayının sol əlində və Qızıl bərə ilə çiyin bə çiyin duran dağın adıdır ki ətəkləri Qotur gölünün sol çiynində yerə yapışır.
25- Kəhlik dağı: Sultanın quzey ayağında, buzlaqlarına baxan dağın adıdır.
26- Günli dağ: Sultanın sağ əlindən Saraba sarı çəkilən dağın adıdır, ki fərhəng və hünər vəsiləsi ilə bastanı asarına görə qoruq bir dağdır.
27- Göy dağ: Savalanın gün batan quzey cəhətində vaedir ki ucalığı 2715 metrə yetişir.
28- Girdə dağ: Göy dağla yanaş və Meşkinə sarı çəkilən dağın adıdır.
29- Yarpaq dağ: Kəhlik dağı ilə yanaş bir sıldırım dağdır ki ucalığı 3140 metrə yetişir.

AZƏRBAYCANDA BAŞQA DAĞLAR İZAHI

1- Ata dağı: 2784 metr ucalıqla Zənganda, Təxt-i Süleyman dağlarındandır.
2- Ağ Baba dağı: Makı mahalında 1310 metr ucalıqla, Qara kəndin yaxınlığında vaqe`dir.

3- Ağ daş dağı: 1500 metr ucalıqla Xoy mahalında, Qotur körpüsünün quzey əlində qərar tapmışdır.
4- Ağ dağ: 2731 metr ucalıqla, Zənganda Təxt-i Süleyman dağlarından və 2003 metr ucalıqla, Həştəri dağlarından və 2950 metr ucalıqla, Səhənd dağlarından və 1820 metr ucalıqla, Qara Ziya mahalında və 1300 metr ucalıqla Əli başı dağının çiynindəki dağların adıdır.
5- Ərşəd dağı: Səhənd dağlarından, Bibi Sultanın yaxınlığında vaqe`dır ki sultan Hesaməddin Fərqədin qəbri o dağın üstündədir.
6- Alağın dağı: Urmiyədə, 3310 metr ucalıqla; Türkiyə ilə İran sərhəddində qərar tapmış.
7- Əlvan dağ: Pir Səqqa dağlarından və Darabi kəndinin güney yönündə vaqe`dir və Zənganda Qaravul dağlarının birisinin adıdır.
8- Ala dağ: 3255 metr ucalıqla Türkiyə ölkəsində yuxarı Tütək kəndinin yanında vaqedir.
9- Əlvənd dağı: 3750 metr ucalıqla Ay batan (Ekbatan, Həmədan) şəhərinin gün batanında volkanik dağlardandır.
10- Uca dağ: 1938 metr ucalıqla Mişov dağlarından biridir.
11- Üç təpə dağı: 1302 metr ucalıqla Culfa mahalında qərar tutmuşdur.
12- Orta dağ: 2428 metr ucalıqla Zənganda, Qumlu kəndin yaxınlığında özünə yer tutmuşdur.
13- Ovlıq dağ: Arazbaranda, Qara dağ dağlarından birisidir.
14- Ovşar dağı: Pir Səqqa dağlarından, Ara çayın yanında vaqedir.
15- Eyqan dağı: Ovlıq dağıyla yanaş; meşəlik Qara dağ dağlarındandır.
16- İri dağ: 2482 metr ucalıqla Qara dağın, Üzümdil mahalında yerləşmişdir və 2400 metr ucalıqla Sofyanda vaqe`dir ki Duzal çayı ondan baş alır.

17- Baba çiçək dağı: Ərbil mahalında Darabirus çayının önündə durmuşdur.
18- Baş dağ: 2195 metr ucalıqla Ocan “ Bostanava” mahalında, Bozquş dağlarındandır.
19- Bağ bala dağı: 2595 metr ucalıqla Kirman ustanındakı dağların biridir.
20- Bağrov dağları: Xalxal və Ərdəbil arasında çəkilən bir sıra dağlardan ibarətdirlər ki ən uca zirvəsi 3196 metr ucalıqla Bağrov adlanan, Nöü`r “ dəryaçaya oxşar, mə`nasina” gölünün üstündə və 2760 metr ucalıqla Hir və Astara mahalının arasında özünə yer etmişdir.
21- Bağlı dağ: 2254 metr ucalıqla Məvazxan mahalında Qaradağ dağlarındandır.
22- Bayəzid dağı: Urmu və Türkiyə sərhəddində olan dağların biridir.
23- Bayqara dağı: 2303 metr ucalıqla Səhənd dağlarından sayılır.
24- Buzsına dağı: 2480 metr ucalıqla Urmiyənin Mil çölündə, Dalamir dağıyla yanaşı dağdır.
25- Bozquş: Sarab- türkəmənçay arasında olan bir sıra dağlardır ki uzunluğu 120 kilometr və eni 45 kilometirdir bu riştə dağın ən uca zirvəsi Sarab şəhərinin güney əlində 3202 metr ucalıqla özünə Bozquş adı almışdır.
26- Bina (Binə, elin otraq yeri) dağı: 3400 metr ucalıqla Sofyan mahalında Morov dağlarındandır ki Bərdi çayı ondan baş tutur.
27- Ağrı dağları: Ararat ağlarının ən uca zirvələri 5650 metr və 5156 metrdir ki böyük və kiçik ağrı adlanırlar bu sıra dağlar 2000 kilometr vüsə`tlə Qafqaz mahalına dək yer üzünü tutmuşdur.
28- Böyük dağ: 2981 metr ucalıqla Səhənd dağlarından sana gəlir.

29- Bibi Sultan dağı: 3376 metr ucalıqla üskü mahalında Dizə kəndinin üstündə, Səhənd dağlarındandır ki zirvəsində bir qadının ziyarətgahı vardır.
30- Bülqeys dağı: 3332 metr ucalıqla Zənganda Təxti Süleyman dağlarındandır.
31- Pirazman dağı: Pirazman kındinin üstündə yer etmişdir
32- Palış dağı: 2045 metr ucalıqla Kəleybər və Əhər yolunda qərar tutmuş.
33- Pəri dağı: 3300 metr ualıqla Urmiyədə, Türkiyə sərhəddində dır.
34- Pir dağ: 2072 metr ucalıqla Mərənd-də Mişov dağlarından, və 1520 metr ucalıqla Xalxalda Bağrov dağlarındandır.
35- Pir Giziday dağı: 2220 metr ucalıqla Vərziqan mahalında Qaradağ dağlarındandır.
36- Pir Musa dağı: Təbrizin quzey və gün batan çiynində vaqedir.
37- Taşlı dağ: 1646 metr ucalıqla türkiyə və Azərbaycan sərhəddində, Makı mahalında yer salmışdır.
38- Tərcan ağı: 2618 metr ucalıqla Xoy-da Qotur dərəsinin döşündə vaqedir.
39- Təxt-i Süleyman dağları: iki sıra dağlardılar ki Səhənd dağlarına yapışmaqla, bir sırası Iraq ölkəsinin sərhəddinə dək, və bir sırası İranda, Əlborz dağlarına dək ayaq tutmuşlar.
40- Top dağ: 2910 metr ucalıqla quzey Azərbaycanda, Qara torpaq və Qara ağac kəndlərinin arasında yer tutmuşdur.
41- Türəcli (Turaclı) : 4300 metr ucalıqla Urmiyədə güneydən quzey əlinə çəkilən dağlardan birisidir.
42- Cam dağı: 3722 metr ucalıqla Səhənd dağına yapışıq ən uca zirvəli dağıdır və dağın üstündə olan bulaq Goranlara müqəddəs ocaq sanılır.
43- Cüt haça: 2040 metr ucalıqla Həştəri dağlarından sanılır.

44- Cürü dağ: Ərbil mahalında bir sıra dağlardır ki ən uca zirvəsi 2850 metr ucalıqla Sərçimən dağı adlanmışdır.
45- Cilov dağı: Türkiyədə Cifik kəndinin yanında qərar tutmuşdur.
46- Çəlikan dağı: 3230 metr ucalıqla Xoy mahalında Şəkməs ava kəndinin yaxınlığında yer salmışdır.
47- Çolyan dağı: Zəngan mahalında Təxt-i Süleyman dağlarından biridir.
48- Çiçəkli dağ: 2189 metr ucalıqla Tufarqan “ Duvar qan, Azərşəhr” mahalının quzeyində vaqedir.
49- Çillə xana dağı: 2089 metr ucalıqla Zənganda Kiya dağla yanaş dağdır, və birdə Gərus mahalında Morov dağlarından biridir.
50- Heydər baba dağı: Qara çimən mahalında Bozquş dağlarından hesab olur möhtəşəm ustad, Şəhriyarın Heydərbaba şah əsəri, o dağa müxatəb bir mənzumədir.
51- Xoruzlu: güney Muğan çölünün , cənubunda bir sıra alçaq dağlardır ki ən ucası 700 metrə yetişir.
52- Xələ dağı: 3162 metr ucalıqla Xoy mahalında Azərbaycanla Türkiyə sərhəddinə yaxın bir dağdır.
53- Dalamır: Urmiyə dağlarındandır və 3200 metrə ucalığı yetişir.
54- Damorov: 3381 metr ucalıqla quzey Azərbaycanın Şumşad mahalındadır.
55- Dəri dağ: 1923 metr ucalıqla Dizmar mahalında, Qaradağ dağlarındandır.
56- Dəmir dağ: Ərbil dağlarının birinin adıdır.
57- Dəmirli dağ: 2850 metr ucalıqla Təxt-i Süleyman dağlarından və Səhənd dağlarındandır.
58- Dena (Dinar) dağı: 4409 metr ucalıqla Yasuc kəndinin qırağındadır.

59- Dənd dağı: uca və sal daşlıq yer; mə`nasına, 2378 metr ucalıqla Təbrizdə Sırxab dağlarının zirvəsidir.
60- Dik daş: Çaldıran mahalında və Türkiyə sərhəddində olan dağın adıdır.
61- Dingə dağı: Zənganda Təxti Süleyman dağlarından birisidir.
62- Divan dağı: 2250 metr ucalıqla Ələmdar- Gərgər, dağlarındandır.
63- Riçə dağı: Urmu-da 3200 metr ucalıqla Türkiyə sərhəddində yer salmış.
64- Zəngəzor dağları: Naxcıvanla Ordubadın arasında qərar tutmuşlar ki o dağların ən ucarağı 3905 metr ucalıqla qayçıq dağı adlanmışdır.
65- Sarı güney dağı: 2229 metr ucalıqla Təxt-i Süleyman dağlarındandır.
66- Samboran dağı: 1722 metr ucalıqla; Mərənd şəhərinin quzey əlində və 2234 metr ucalıqla; Qara dağda, Samboran kəndinin üstündə qərar tapmış.
67- Savalan (Sav= risalət- perğəmbərlik, alan= yer mə`nasına, və ya Sav, alan= bac, alan yadak:sov, pejvak mə`nasında, səsi alıb sov qaytaran dağ) ki o səsli- sovlu volkanik dağın quzey cəbhəsi Xiyov ya Meşkin şəhr və doğu güney Ərdəbil və batı güneyi Sarab və bati cibhəsi qoşa dağ vəsiləsi ilə Qara dağ dağlarıdır tarixlərdə qeyd olan yazılara görə bu müqəddəs dağın heç zaman başı qarsız olmayıb və keçmişlərdə qucağı vəhy ocağı və ətəkləri, Muğ və Muğların rəyazət ibadətgahı və döşləri aslanlar oylağı olmuşdur. ən uca zirvəsi mehrab daşının üstü olarkən 5013 metr ucalığıyla bu dağ, dünyanın ən gözəl dağlarından biridir.
68- Sırazı dağı: 3112 metr ucalıqla Türkiyədə Xəkan (Xərqan) kəndinin önündə qərar tapmış.
69- Sından dağı: 2970 metr ucalıqla Əbhər mahalında özünə yer salmışdır.
70- Səhənd ava (Səhəndiyə): rusubdan törənən volkanik dağlardandır, ki uzunluğu 100 kilometrə və eni 75 kilometrə yetişir, bu dağların güney

doğu cəbhəsi Qara çimənlə Ocan “ Bostanava” və quzey Təbriz, və güney batı cəbhəsi, Marağadan tutdu Təxti Süleyman dağlarına də çəkilmişdir, bu dağların iki dağı 3562 və 3656 metr ucalıqla Səhənd adlanır.

71- Şam dağı: 3562 metr ucalıqla Səhəndin gün batan güneylərindəki dağlardan biridir.

72- Şəmlik dağı: 3100 metr ucalıqla Qotur dərəsindən gün çıxana sarı qərar tapmış, ki Zolaka çayı ondan baş alıb və Urmiyə dəryaçasına tökülür.

73- Şıx Süleyman dağı: Səhənd dağlarından biridir.

74- Şıran dağı: 2596 metr ucalıqla Heris mahalında qoşa dağlardandır.

75- Şişək dağı: 2450 metr ucalıqla Bozquş dağlarındandır.

76- Şindan dağı: Ərdəbil- Astara yolunda Heyran gədiyinin üstündə Ağ çay döşündə, quzey Azərbaycan dağlarındandır ki Şindan (Şidan) qalası onun zirvəsində, Xurrəmdinlər zamanından qalan bir qaladır.

77- Salavat dağı: Muğan mahalında bir sıra alçaq dağlardır ki ən uca zirvəsi 2228 metrə yetişir.

78- Üryan dağ: 2839 metr ucalıqla Səhənd dağlarındandır.

79- Əqərə dağı: 1450 metr ucalıqla Ərbil- Dəhuk, mahalında yerləşmişdir.

80- Ələmdar dağı: 3155 metr ucalıqla Mişov dağlarının birisidir.

81- Əli baş (Əli başı) dağı: 1950 metr ucalıqla Culfa mahalında Hacılar kəndinə yapışıq dağdır.

82- Əli bəy dağı: Germi mahalında vaqedir.

83- Qərran (Ğərran) dağ: 2450 metr ucalıqla Urmiyədə qərar tutmuşdur.

84- Qaplantay dağı:2219 metr ucalıqla Binab- Tufarqan “ Azərşəhr” yolunda, Səhənd dağlarındandır.

85- Qara bəllə: Şəbistərdə, Mişov dağlarından biridir.

86- Qara dağ: bir böyük sıra, rusubla törənən dağların adıdır ki Təbrizin quzeylərində Sırxab dağlarına qatışarkən Əhər- Ərəsbaranı bürüyüb, və Araz çayına dək boy atmışdır, bu dağların uzunluğu 230 kilometir və eni aralıqda 65 kilometir və doğuda 45 kilometir və batıda 20 kilometrə yetişir. Və birdə, 1530 metr ucalıqla Bağru dağlarından və 2430 metr ucalıqla Ararat dağlarından və 2630 metr ucalıqla Təxti Süleyman dağlarından və 2209 metr ucalıqla Urmiyədə Quşçu mahalında özlərinə yer salmışlar.
87- Qasım dağı: Səhənd dağlarından biridir ki Həştəri mahalında vaqedir.
88- Qarı qız dağı: 2609 metr ucalıqla Culfa mahalında Veran dağın önündə qərar tutmuş, və dağlar dərə Dizədən Gərgərə sarı çəkilmişlər.
89- Qazı (Baba Qazı) dağı: 2179 metr ucalıqla Zəngan dağlarından dır.
90- Qazan dağ: Səhənd dağlarında, Dövrüş və Qışlaq dağına yapışıq dağdır və Ərəsbaranda, Qaradağ dağlarındandır ki ona Qazanı da deyirlər.
91- Qaflan dağları (Qaflantay) : bir sıra rusubi dağların adıdır ki Miyana mahalını bürüməklə, ucaraq zirvəsi 1540 metrə yetişir ki onun, doğu döşü Məncil və batı döşü Saqqız mahalına yetişir.
92- Qanlı baba dağı: 2503 metr ucalıqla Makı mahalında boy atmışdır.
93- Qara xaşlı dağ: 2691 metr ucalıqla quzey Azərbaycanda, Kənam kəndinin üstündə yer salmışdır.
94- Qardaş dağı: 2430 metr ucalıqla Azərbaycan və Türkiyə sərhəddində və 2776 metr ucalıqla Makıda Zəngimar çayının kənarında və 2582 metr ucalıqla Məməd ava kəndinin quzey döşündəki dağdır.
95- Qəsr dağı: 1572 metr ucalıqla Qara dağ dağlarındandır.
96- Qəndil dağı: Urmuda Qotur dərəsinin üstü, Məkri dağına qatışan dağdır.

97- Qoşa dağ: 3149 metr ucalıqla Savalan dağlarındandır ki Heris mahalında, nəhayətdə Qara dağa qatışan dağlardılar və birdə Qotur dərəsinin önündə iki zirvəli və Ağ dağla qatışıq dağların adıdır.
98- Kərbilin dağı: 3280 metr ucalıqla Türkiyə- Azərbaycan sərhəddində qərar tutmuş.
99- Kəsbə dağı: 2952 metr ucalıqla Qara dağ dağlarındandır.
100- Kəltə dağı: 1485 metr ucalıqla Səhənd dağlarındandır.
101- Kəlal dağı: Səhənd dağlarının biridir.
102- Kosa (Kosa baba) dağı: 3014 metr ucalıqla Mişov dağlarındandır.
103- Küşkar dağı: 2319 metr ucalıqla Zənganda Qəni (Ğəni) bəyli mahalında qərar tutmuşdur.
104- Kül təpə dağı: Leyla dağının yaxınlığında, Küzəgər – Mülük dağıyla yapışıq dağdır.
105 – Kiya dağı: 2520 metr ucalıqla Zənganda Qara Pəsli mahalında yerləşmişdir.
106- Kiringan dağı: 3000 metr ucalıqla Qaradağ dağlarındandır.
107- Gür gür dağı: 2990 metr ucalıqla Təxti Süleyman dağlarındandır.
108- Gül təpə dağı: 1995 metr ucalıqla Təbrizin güney üzündə Səhənd dağlarındandır.
109- Gül meşə: 1373 metr ucalıqla Zənganda Təxti Süleyman dağlarındandır.
110- Güney dağ: 1631 metr ucalıqla Zəngan dağlarından ibarətdir.
111- Leyla dağı: 2144 metr ucalıqla Səhənd dağlarındandır.
112- Lalan dağı: 3141 metr ucalıqla, Culfa - Mərənd yolunun üstündə durur.
113- Livar dağı: Culfa- Mərənd yolunun üstündə vaqedir.

114- Liqvan dağı: 2306 metr ucalıqla Səhənd ava dağlarından və Liqvan kəndi onun önündə yer salmışdır.
115- Mahurhayı: Morov və Mişov dağlarını Sofyanda bir birinə yapışdıran külə dağların adıdır.
116- Mazok dağı: 1397 metr ucalıqla Ağ çay önündə Qotur dərəsinin döşündə boy atmışdır.
117- Malla dağı: 2125 metr ucalıqla Əbhərdə və 1970 metr ucalıqla Urmiyə dağlarındandır.
118- Mərmər dağı: Miyanada, Qaflantı dağlarından biridir.
119- Mənbər dağı: 2429 metr ucalıqla, orta dağa yapışıq dağın adıdır.
120- Morov dağları: Təbriz- Sofyan ara qara dağlarıyla müvazi başlanıb gün batana sarı çəkilmiş dağların adıdır ki o dağların ucarağı 3614 metrə yetişir.
121- Mişov dağları: Sofyanda Morov dağlarına yapışan və Mərəndə sarı çəkilən dağların adıdır ki bu dağların iki uca dağı 2534 metr və 3014 metr ucalıqla Mişov adıyla adlanır.
122- Nişan dağı: 3660 metr ucalıqla Qaradağ dağlarındandır.
123- Nərmiq dağı: 2539 metr ucalıqla Heris mahalında, İsmayıl kəndinin önündə və 3105 metr ucalıqla Şalı kəndinin önündə qərar tutmuşlar.
124- Yaş dağ: Savalan dağının güney doğusunda, Vilə dərə önündə vaqedir.
125- Yüz dağ: Savalan dağlarının güney döşündə Dursun Xoca və Göyərçin kəndlərinin önündə yer salmışdır.
126- Yarğan dağı: 2799 metr ucalıqla Binab-da, Səhənd dağlarındandır.
127- Veran dağ: 2257 metr ucalıqla Culfa mahalında, Qarı qız dağının önündə kəllə qəndə oxşar bir dağdır.

YARĞANLAR İZAHI

1- Ov dərəsi : Savalanın güney tərəfində sayın “ seçilmiş, möhtəşəm mənasına” gədiyinə doğru bir yarğandır.

2- Daş dərə: Savalandan baş tutan və Nir mahalında qurtaran dərənin adıdır.

3 - Donuz (Donquz) dərəsi: Qarasu dərəsindən ayrılan və Səmyan çayından gün çıxana sarı çəkilən, başı bağlı bir yarğandır ki onun üst bağlı başına Ərcə mahalında Kontur qışlağı deyirlər.

4- Sarı dərə: Noqudu kəndilə Nöeür gölünün arasında və Mis dərəylə yanaşı yarğanın adıdır.

5- Şirvan dərəsi: Sultanın ən görkəmli- əzəmətli yarğanıdır o dərə Sultanın quzeylərindən (Şabil gölünün yaxınlığından) baş tutub 32 kilometir yol dolanandan sonra, Ları kəndinin yaxınlığında Çırabba adlı yaylaqda qurtulur.

6- Qara su dərəsi: Sultanın ikinci görkəmli yarğanıdır, demək Sultanın bir sıra dağlarını bir üzük kimi araya alıbdır bu dərə uzunluqda, Şirvan dərəsindən baş ola bilir. Bu dərənin dönüm- dönüm olmaqlığı, fikirləri daha artıq öz əzəmətinə məşğul edir. Bu dərə Xurrəmdinlərin döyüş oylağı olduğuna görə tarixdə özünə böyük ad qazanmışdır.

QALALAR İZAHI

1- Ay qalası: Heris mahalında, İsmayıl kəndinin önündə olan Öküz dağının zirvəsində tikilən qalanın adıdır.

2- Ərşə qalası: Qara su çayının döşündə və Ərşə (Ərşəq) mahalıla Vərghan mahalının arasında salınmışdır.

3- Ağça qala: Xiyov mahalında, Qara qaya kəndinin yaxınlığındakı qaladır, ömrü miladdan qabaqkı min illiyə yetişir.
4- Ələncə qala: (üsyan və fitnə məqnasına) Ələncə kəndinin döşündə və Ələncə çayının qırağındakı salınmişdır.
5- Bəz (Baz ,Bar, s) qala: Ərəb tarixində gələn Bəzeyn (iki bəz) adı; Bəz şəhəri və Bəz qalası deməkdən, iki qaladan ibarətdir tədqiqat nişan verir ki bu günkü Babək (Çımxır, Cimhur) qalası həman Bəz və ya Bar "var-sirot" ; yada , Bars= bərs " yuz pələng" qalası, həman Kələybər - şəhəri (Kalaybar və ya, Qala bar-s) Bəz şəhərindən ibarət olan qaladır.
6- Boynu yoğun qala: ki tarixdə Cahan qala adlanmışdır, Nir mahalında Kora bazlı kəndinin quzey əlində sıldırım dağın zirvəsində tikilmişdir.
7- Piştov qala: Diklə mahalında, Piştov kəndinin yamacında salınmışdır.
8- Çay qala: Ərəb tarixində (Həsnülnəhr) adlanmış qalanın adıdır o qala Ərşə qalanın yaxınlığında və Qara su döşündə tikilmişdir.
9- Dev qalası: Xiyov mahalında, Unarla Küviç kəndlərinin yaxınlığında Həxamənişlər əsrində salınan qaladır.
10- Ruyin qala: Savalanın gün çıxanında Ruyindeh kəndi bu qala adıyla tanınmışdır.
11- Qara qala: Qara su çayının döşündə Ərşə qalaya yaxın bir qaladır.
12- Qalacıq: Savalan döşündə Qalacıq kəndinin üstündə tikilmişdir.
13- Qahqaha qalası: Qara su döşündə Vərghan mahalında salınan qaladır.
14- Qız qala: Germi- Muğan; üstündə, Bərzənd qalanın yaxınlığındadır, onun ömrü Əşkani və Sasani zamanına yetişir. Və birdə Miyana yolunda Qız körpüsünün döşündəki qaladır.
15- Köhnə qala: Xiyov çayının döşündə dağının qaladır.
16- Kor qala: Hır mahalında Kor qala kəndinin önündə düzəlinmişdir.

17- Münzəm qalası: Meşkin şəhərində milli asar tanılan qaladır.

18- Novduz qalası: Əhər- Meşkin, yolunun üstə, Novduz çayının döşündədir.

QUŞLAR İZAHI

1- Alapaxta: murği səhrayi.

2- Alaşa: göyərçin və qara qarqaya oxşar bir quşdur.

3- Bağrı qara: serçədən bir az böyük və döşünün üstü qara quşdur.

4- Balığçın: quğu, qurday, qayğılıq quş, butimar, ğəmxorək, həvasil.

5- Bupbu: hod hod, bupək

6- Bülbül: qənarə, bülbül.

7- Burçin: sinəsi həna boyasında və başı yaşıl rəngdə sona.

8- Bildirçin: səmanə, belderçin- bodbodə.

9- Pığı: serçə yeyən və ləş yeyən quşdur.

10- Tərlan: qızıl quş və şəhbaz növündən bir quş.

11- Təmuçin: qartal kimi şikari quşların bir növü.

12- Toraxay: kakoli.

13- Toğrol: dəmir dirnaq şikari quş, ki onlar ördəyi öldürər və birini yeyər.

14- Toğan: başəyə oxşar bir növ şikari quş.

15- Toyğar: ağac dələn, xul, qərra.

16- Çağrı: çaflı, şahin növündən bir cür quş.

17- Çətirkə(çoban aldadan) : şəban fəribək.

18- Durna: kələng, kərki, dorna.

19- Sarı köynək: seyrə\ sehrə bülbül, yaşılla qatışmış, sarı tük və xoş səs quş.

20- Sağsağan: zağçe, zağı.

21- Serçə: gonceşk

22- Su quşu: morği abi

23- Sığırçın: sar.

24- Səncər: sencər, şikari quş.

25- Sondilac: çöl serçəsi.

26- Sonqor: şonqar və toromtay kimi çərğ cinsindən şikari quş.

27- Simorğ: qaf dağında əyləşən şikari quş.

28- Fərə: kəhliyin balası.

29- Qaranquş: qarlanqurc, çelçelə, pərəstu.

30- Qartal: bürküt- toğan- ərsonqur- qara quş, toğrul cinsindən oqan(qartal).

31- Qarqa: zağ

32- Qaz: qu

33- Qazalağ: qebrə, bir cür çəkavək.

34- Qərqavul: çol xoruzu, təzru, turəng

35- Qəcələ: dəmləqənə, zəğən.

36- Qərəcə: bir növ ördək.

37- Qutan: morği səqqa.

38- Qumru: yahı, yakərim.

39- Qırğı: başə, başəq, qartal tirəsindən, ondan kiçik quş.

40- Qızıl quş: tərlandan böyük şikari quş.

41- Kəhlik: kəbk, qəbəc.

42- Güləyən: bir cür kiçik quşlar ki oxuşu uşaqların gülüşünə oxşayar.

43- Göyərçin: kəftər

44- Laçın: qara sonqur, şahin.

45- Ley: kərk, şığıçı bir quş.

46- Murad quşu: sığırçın, sar, tirəsindən olan quşlardır ki ataların dediklərinə görə, keçmiş əsirlər kövşənlərə çəkirgə üz gətirən zaman, əkinçilər bir nəfər elçi göndərərmişlər ta murad quşu bulağından ki (Şah bulağ) adlanırmış, su gətirsin. Və elçi bir halda ki yan yörəsinə baxmazmış və bir kimsə ilə danışmazmış və sudan gətirib öz kəndlərinin bulağına töküb və bir miqdar arqa və buğda bulağın kənarına səpməklə, murad quşlarından istəyərmiş onları bu afətdən nicat versinlər, və quşlar üç bölgü olub, bir coması çəkirgələri şikar etməyə məşğul olub və bir coması dimdiklərini və tüklərini göldə yuyub və üçüncü coma göldən qıraqda, intizarda qalarmışlar ki şikarda olan murad quşları yuyunmağa gələndə onlar şikara getsinlər.

GƏDİKLƏR İZAHI

1- Heyran gədiyi: Bağru- Şindan dağlarının ətəklərində, Ərdəbil- Astara yolunda meşəlik gədikdir.

2- Sayın gədiyi: seçiliş- möhtəşəm mənasına, Savalanın ətəyində, Sarabla Ərdəbil arasında adlım gədiklərdəndir.

3- Hazar muğ gədiyi: herəmlərin gün batan çiynindən başlanır, ki o gədikdə muğlar, İslamdan qabaq rəyazət çəkməyə məşğul olarmışlar, və gədiyin yoluna Elat ara (El yolu) deyirlər.

4- Həftə gədiyi: Savalanın quzey ətəklərindən başlanır, və gədik həmişə qar- yağışlı və çənli olduğuna görə elatlar müəyyən həftələrdə ordan keçib və köçürlər, ona görə Həftə gədiyi adlanır.

5- Yelli gədik: Savalanın sağ döşündəki gədiyin adı, və Yelli gədik yaylağı oradadır.

6- El yolu: “Elat yolu” həman Hazar muğ gədiyindən ibarətdir.

7- Yam: Mişov dağlarının ətəklərində (Təbriz- Mərənd) yolunun üstündə olan gədiyin adıdır.

GÖLLƏR İZAHI

1- At gölü: əfsanələrdə, Babəkin Qara qaşqa atının boğulduğu gölün adıdır.

2- Üç qardaş gölləri: Qızıl bərə və Cüt bacı dağlarının arasında bir birinə yaxın üç gölün adıdır, və göllərin böyükrağına ki üç bucaq şəklinə oxşarı vardır " At gölü" və ondan kiçik gölə " Dibsiz göl" və üçüncü gölə " Kiçik göl" deyirlər.

3- Savalan dəryaçası: Sultanın zirvəsində vaqe` olan volkanik ağzıdır ki Sultanın zirvəsində olduğuna görə salım qalıb və su ilə dolubdur ki ildə on ay onun üzü buz bağlayar. Və göl 120000 metr mürəbbə vüsə`tlə dərinliyi 130 metr və en- boyu, 180 və 80 metrə yetişir, bu göl, iç əzəmətinə görə Savalan dəryaçası adlanır.

4- Tovus gölü: Şabil gölünün yaxınlığında Şirvan dərənin gün batan döşündə, böyük bir göldür.

5- Qara göl: Qızıl bərə dağının cınağında olan yumurta şəkilində olan gölün adıdır ki Sultanın üst yamacından baxanda, gözə oxşarı vardır.

6- Bin göl (Min göl): Türkiyədə Ağrı dağlarının ətəyində vaqe` olan göllərdən ibarətdir ki Araz çayı, o göllərdən baş alıb nəhayətdə Azərbaycan ölkəsində böyük bir çay olub Xəzər dənizinə tökülür.

MƏ`DƏNİ SULAR İZAHI

1- Allah haqqı gölü: Sarab mahalında Boz quş dağlarının döşündə Əsb firuşan kəndinin yaxınlığında, iki məədəni suyun adıdır.

2- Ağ su: Meşkin mahalında bir məədəni sudur.

3- İlancıq gölü: Nir şəhərinin üstündə və Savalanın döşündə İlancıq kəndindədir.
4- İlan döv və döv- döv: Meşkinin 15 kilometirliyində, Möevl gölünün güneylərində bir biriylə yarım kilometir fasiləli iki məədəni gölün adlarıdır.
5- Buşlu: Nir şəhərinin quzey yeddi kilometirliyində bir məədəni suyun adıdır.
6- Cəldə baxan: Sarabın quzeyindən gün çıxana sarı Cəldə baxan kəndindədir.
7- Sarı su gölü: Gözədə 47 və hovzçədə 44 dərəcədə Səreyin sularındandır.
8- Saqqızçı gölü: Sarab mahalının quzeyində, gün sarı Saqqızçı kəndində vaqedir.
9- Sərdava: Ərdəbilin gün batanından quzeyə sarı, Savalanın döşündə bir gölün adıdır.
10- Şabil: Savalanın quzeyində Qotur gölünə yaxın bir gölün adıdır ki o su yerdən çıxıb iki daşdan yonulmuş hovzçalara tökülür ki Elat ara, Şabil-Qabil deyirlər.
11- Şalqon: Sarab mahalının quzeyində bir gölün və kəndin adıdır.
12- Qara çanaq suyu: Ərdəbildən Nəminə sarı bir kəndin adı və o kənddə fantarlayan bir suyun adıdır ki o suyu, böyrək daşını əritməsinə dərman deyirlər.
13- Qara su gölü: 41 dərəcə hərarətdə iki hovzçəli Səreyində vaqe olan məədəni sudur.
14- Qotur gölü: Meşkin şəhərin, gün çıxana sarı 18 kilometirliyində, gügürd dağının döşündə və Unar çayının qırağında, Savalanın quzey ətəyində gügürdlü bir göldür.

15- Qaynarca gölü: Meşkinin 22 kilometirliyində, Gür gür şəlaləsinin gün batanına sarı, qaynar sudur ki neçə dəyqədə yumurtanı özündə pişirir.
16- Gamış gölü: 45 dərəcə hərarətdə Səreyində ən böyük göldür ki boyu 25 və eni 17 metrə yetişir.
17- Vilədərə suyu: Savalanın gün çıxan döşündə və Səreyinin dörd kilometirliyində 18 dərəcə hərarətdə gazlı bir suyun adıdır.
18- məlik suyu: Möevl gölünün üstündə, bulanıq və dayaz bir gölün adıdır ki o gölün gün batanında on metirlik Gür gür şəlaləsi axmaqdadır, ki neçə ağacdan onun səsi qulaqlara yetişir, gözəllik baxımıyla; bu şəlalə Niyagara ilə bu şeerdə qıyas olmuşdur.
19- Möül gölü: Savalanın quzeyində və Meşkinin yaxınlığında bir suyun adıdır.
20- Yaranal (Jenral) suyu: 43 dərəcə hərarətdə Səreyin bəxşində vaqedir.
21- Yel suyu: 41 dərəcə hərarətdə Səreyin-də bir kiçik gölün adıdır ki qəhvə suyu və sinir (əsab) suyu və pehinli su, və gölün yaxınlığında yer tutmuşlar.
22- yeddi bölük gölü: Ərdəbil şəhərinin Səreyin bəxşinin göllərindəndir.
23- Savalanın başqa mə`dəni suları Səreyin bəxşində: Göz suyu, 21 dərəcədə/ Himmət qəhvəxanası suyu 40 dərəcədə / Mumtaz qəhvəxanası suyu 47 dərəcədə/ Beş bacılar suyu “Beş gözdən baş tutan göl” 35 dərəcədə / Savalanın müctəme dərman suyu ki iki böyük istəxrdən və iki cəkkozi və yeddi sonalı hovzçədən təşkil olur.

Savalan mənzuməsinin başqa izahları

(1) = səksən bir elat: bütün mənbə`lərdə qeyd olan adlara görə beş- altı yüz il qabaqlardan indiyə qədər səksən bir elat Savalan ətəklərində yaşayıb

və yaşayırlar ancaq əsrimizdə bu elatlardan, otuz beş elat, Savalanın həndəvərində abadlıqlarda taxta qapılı “sakin” və qalan qırx altı elat, köçəri halında Sultanın döşlərində və ətəklərində yaylaq və qışlaq edirlər.
(2)= darğan günü: Zərdüştilərin gahanbar bayramlarının birisi, isfənd ayının son günü, ki qışın qurtuluşu və mübarək yazın gəlməsini yetirir “xilqət günü” ad-lanır ki o günə el ara darğan günü deyirlər.
(3)= sağdıc= dış və solduş: dıc= sədiq yar dost mə`nasına; sultan Savalanın zirvəsindən güneyə (qıblaya) sarı duranda Qaradağ dağları Sultanın sağ çiynində və Bağrov dağları sol çiynində durur.
(4)= Xudafərin körpüsü: Araz qırağında Xuda afərin kəndinə yaxın, iki əski “bastanı” körpülərdir ki birisi 160 metir uzunluqda 15 gözlü ki Səlcuqi əsrində düzəlinmişdir, bu körpünün beş gözü Arazın quzey əlində və beş gözü Arazın güney əlində və beş gözüdə Arazın üstünə çəkilmişdir. Və ikinci körpü, on gözlü; 120 metr uzunluğunda, Səfəvi əsrində tikilmiş bir körpüdür ki bu körpünün quzey əlindəki bir gözü kor olmuşdur.
(5)= şəhər yurdu: Meşkin mahalında Ərcə kəndinin on iki kilometrliyində, dörd yüz hektarlı və dörd qalalı (Oğlan qalası, Qız qalası, Uşaqlar qalası, Məktəb qalası) adlı yurdun adıdır ki orada veran qalan şəhərin hasarlarından, bir para izlər gözə çarparkən onun yaxınlığında bir çox gorlar vardır ki kənd əhli onlara Gavur (Gebr) qəbri deyirlər o qəbirlərin baş daşlarında qəhrəmanların silahlarının şəkli şəmayili qazılmışdır ki onlara kənd ara, mədrəsə (məktəb) uşaqları deyirlər ....., Ballı qaya və Sarı dərə və Donquz dərəsi onun həndəvərində durur.
(6)=Mehrab daşı: Sultanın dəryaçasına baxan yüz otuz metirlik hündür qayanın adıdır, keçmişdə o daşın gölə baxan ətəyində bir neçə gor variymiş ki tarixdə Muğan- ların rəyazət çəkdiyi yeri və gorları olmuşdur.

(7) buzlaq: Sultanın quzey əlində üç böyük yamac, ki həmişə buzlaqdır Qubadyanı Nasir Xosrov və başqa tədqiqatçıların yazdıqlarına görə o buzlaqların heç zaman qar- buzu, əriməyib və zirvəsi qarsız görsənməmişdir.

This document was created with Win2PDF available at http://www.win2pdf.com.
The unregistered version of Win2PDF is for evaluation or non-commercial use only.
This page will not be added after purchasing Win2PDF.